

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# İrəvanın tarixi irsi



10

№ 001 (6926)

# SƏS

8 yanvar 2024-cü il.
Qiyməti 60 qəpik

# 2024-cü ilin hədəfləri: böyük zəfərlər, ardıcıl uğurlara doğru

4




*PREZİDENT İLHAM ƏLİYEV: "Dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır"*

# Ermənistan üçün 2024-cü il: BƏDBİNLİK, YOXSA NİKBİNLİK?



7

## 2030: Dünya və Azərbaycan üçün iqtisadi proqnozlar nə vəd edir?



8

## Namizəd Səfərov Əli Kərimlinin planlarını pozdu



9

## Xərçəng və biz: Kimlər gəldi, kimlər keçdi...



13

## Bir məsələyə məəttələm...



14

## Avtomobillərin qiymətinin kəskin bahalaşmasına SƏBƏB NƏDİR?



16

# Azərbaycan dünya birliyi üçün etibarlı tərəfdaşdır!

*Prezident İlham Əliyev yanvarın 7-də Yaponiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Katsuya Vatanabenin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.*



## *Prezident İlham Əliyev Yaponiyanın, Lüksemburq Böyük Hersoqluğunun və Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfirlərini qəbul edib*

Səfir Katsuya Vatanabe Yaponiyanın İmperatoru Əlahəzrət Naruhitonun Yaponiya-Azərbaycan əlaqələrinin daha da inkişaf etdirilməsi ilə bağlı arzusunu dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev minnətdarlığını bildirərək, onun da xoş arzularını Yaponiyanın İmperatoruna çatdırmağı xahiş etdi.





Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq münasibətlərinin 30 ildən artıqdır ki, müxtəlif sahələri əhatə etdiyini vurğulayaraq bütün istiqamətlərdə yaxşı nəticələrin əldə olunduğunu bildirdi, qarşıdan gələn illərdə əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu diqqətə çatdırdı. Prezident İlham Əliyev ənənəvi sahələrdən başqa əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdirilməsinin zəruriliyini qeyd etdi. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycan Prezidenti ilə görüşdən böyük şərəf hissi duyduğunu deyən Katsuya Vatanabe xoş sözlərə görə minnətdarlığını bildirdi. O, ölkələrimiz arasında dostluq və xoş münasibətlərin mövcud olmasında dövlətimizin başçısının rolunu xüsusi qeyd etdi.

Səfir COP29-un bu il Azərbaycanda keçirilməsi ilə bağlı qəbul edilmiş qərar münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi və qeyd etdi ki, yaşıl iqtisadiyyata keçid, yüksək texnologiyaların inkişaf etdirilməsi Azərbaycanın prioritet istiqamətlərindən biridir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan COP29 çərçivəsində Yaponiya ilə birgə iş birliyinə hazırdır.

Katsuya Vatanabe öz növbəsində qeyd etdi ki, ölkəsi yaşıl cəmiyyətin qurulması, yüksək texnologiyalar əsasında inkişafa mühüm əhəmiyyət verir və bu sahədə də ölkələrimiz arasında əməkdaşlıq üçün böyük imkanlar var. Səfir Azərbaycan-Yaponiya əlaqələrinin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi.

Prezident İlham Əliyev dünən Lüksemburq Böyük Hersoqluğunun ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Alain de Muyserin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir Alain de Muyser Lüksemburqun Azərbaycanda akkreditə edilən ilk səfiri olmasından məmnunluğunu bildirərək, bu təyinatın və səfir kimi fəaliyyətinin ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına, eyni zamanda, insanlar arasında təmasların artmasına xidmət göstərəcəyini qeyd etdi.

Prezident İlham Əliyev Lüksemburq Böyük Hersoqluğunun səfirinin Azərbaycanda akkreditə olunmasını əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Lüksemburq arasında əlaqələrin həm də Avropa İttifaqı çərçivəsində əməkdaşlıq baxımından önəmini qeyd etdi. Prezident İlham Əliyev əməkdaşlığın inkişafı üçün səylərin fəallaşdırılmasının zəruriliyini bildirdi. Alain de Muyserin səfir kimi əlaqələrimizin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlığını ifadə edən Azərbaycan Prezidenti ona fəaliyyətində uğurlar arzuladı. Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı surətdə məlumatlandırmanın və iqtisadi təmasların artırılmasının vacibliyi qeyd olundu. Səfir COP29-un Azərbaycanda keçirilməsi barədə qəbul edilmiş qərarla bağlı təbriklərini dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Yaşıl enerjiyə keçid, yüksək və kosmik texnologiyalar sahələrində Lüksemburqun zəngin təcrübəyə malik olduğunu deyən səfir bu sahədə də əməkdaşlıq üçün böyük imkanların olduğunu qeyd etdi. O, Lüksemburqun əsas daşıma şirkəti olan ”Cargolux” ilə Azərbaycanın uğurlu əməkdaşlıq etdiyini vurğuladı. Söhbət zamanı ölkələrimiz arasında bank, maliyyə, nəqliyyat və digər sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev yanvarın 7-də Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sezar Auqusto de las Kasas Diasın etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi. Sezar Auqusto de las Kasas Dias Peru Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Səfir ölkəsinin dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə daim sadiq olduğunu və buna xüsusi əhəmiyyət verdiyini qeyd etdi, bu xüsusda Perunun Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Peru Prezidentinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Azərbaycanın da dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə daim böyük əhəmiyyət verdiyini, ölkələrimizin Qoşulmama Hərəkatı və digər beynəlxalq təsisatlar çərçivəsində əməkdaşlıq etdiyini məmnunluqla vurğuladı.

Beynəlxalq hüququn prinsiplərinin eyni zamanda Qoşulmama Hərəkatının əsas prinsipləri olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin 4 ildir bu hərəkata fəal şəkildə sədrlik etdiyini dedi, ölkələrimizin bundan sonrakı illərdə də bu mühüm beynəlxalq institutun önəminin daha da artırılması istiqamətində birgə səylər göstərəcəyinə ümidvarlığını bildirdi. Azərbaycan Prezidenti, həmçinin digər beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də beynəlxalq hüququn fundamental prinsiplərinin hökm sürməsi istiqamətində birgə fəaliyyətlərinin davam etdirilməsinin də zəruriliyini qeyd etdi.

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə baxmayaraq, ölkəmizin 30 ildən çox idi Ermənistan tərəfindən sərhədlərinin pozulduğunu və torpaqlarının işğal olunduğunu deyən dövlətimizin başçısı Azərbaycanın beynəlxalq hüquqa, o cümlədən beynəlxalq humanitar hüquqa uyğun olaraq gücdən istifadə edərək ədaləti özünün bərpa etdiyini vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı. Xoş sözlərə görə minnətdarlığını bildirən səfir xüsusilə Azərbaycanın enerji sahəsində əldə etdiyi uğurlar nəzərə alınaraq bu sahədə əlaqələrimizin inkişafı üçün yaxşı potensialın olduğunu vurğuladı. Səfir ölkəsinin arxeologiya və mədəniyyət abidələrinin qorunması sahəsində təcrübəyə malik olduğunu deyərək, bu istiqamətdə də əməkdaşlıq imkanlarının mövcudluğunu qeyd etdi.

Söhbət zamanı Azərbaycan ilə Peru arasında ticarət dövriyyəsinin artırılmasının, iqtisadi münasibətlərin fəallaşdırılmasının vacibliyi qeyd edildi, bu xüsusda iki ölkənin biznes dairələri arasında əlaqələrin yaradılmasının zəruriliyi bildirildi. Görüşdə sərmayə qoyuluşu və qarşılıqlı maraq doğuran investisiya layihələrinin müəyyən edilməsinə, bu xüsusda ölkələrimizin nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinə dair fikir mübadiləsi aparıldı.

***Beşminillik tarixin ərməğanı, qədim mədəniyyət ocağı, füsunkar təbiət mənzərələri ilə əsrarəngiz cənnətməkan, Azərbaycanın döyünən ürəyi, Naxçıvan. Uca dağları, qocaman qayaları ilə yaşıd folkloru, milli dəyərləri, zəngin mətbəxi ilə bu təbiətin əkizi özü haqqında özü söhbət açır.***

# Naxçıvan özü özündən danışır...




## Naxçıvan Muxtar Respublikası-100

Gəlin bu diyara... Gecələrinin ulduztək sayrışan işıqlarının büllur dənizə bənzər sularında Nuhun gəmisinə əyləşin, “Dünya tufanı”nı dinləyin bu diyardan, o, sizə minilliklərdən danışacaq. Nuhun gəmisi ilə yaşıd olduğundan, Gəmiqayanın sirrindən, İslam mədəniyyətinin beşiyini yürgələməsindən, Manna, Midiya, Atropatena, Əhəmənilərə, Ərəb xilafətinə, Xürrəmilər hərəkatına, Salarilər, Rəvvadilər, Səlcuqlara şahidliyindən, bu məmləkətin qəlb döyüntüsü Naxçıvan şəhərinin 40 ilədək Atabəylər dövlətinin paytaxtı olmasından danışacaq. XIII əsr monqol işğalından, Hülakülər, Elxanilər dövründən, XIV əsrin Qızıl Ordasının Toxtamışından, Əmir Teymurun Əlincəyə 14 illik qara sevdasından danışacaq. Naxçıvanda intişar tapmış hürufilik təriqətindən, bu təriqətin yaradıcısı Fəzlullah Nəiminin Əmir Teymurun oğlu Miranşah tərəfindən edamına şahidliyindən söz açacaq. Dinlədikcə onun söhbətlərini nənələrimizin soyuq qış gecələrində isti soba başında söylədikləri doyumsuz nağılların qəhrəmanlarını tapacaqsınız bu diyarda. Müharibələr, işğallar, mübarizələr, müdafiələr, qəhrəmanlıqlar əsr-əsr bu yurdun tarixini, bu gözəl coğrafi mövqeyə həsədi, onu əldə etmək istəklərini qoyur ortaya. Səfəvilər dövlətinin Naxçıvanı fəth etdiyini, XVI-XVII əsrlərdə Səfəvi¬-Osmanlı müharibələri ucbatından əldən-ələ keçdiyini, dəfələrlə qarət olunaraq dağıdılmasını “xatırlayır” bu diyar. Naxçıvan xanlığı dövründən, bu xanlığın paytaxtı olmasından, Kəngərlilərdən bəhs edir, Türkmənçay, Qars, Moskva müqavilələrinə münasibətini bildirir. Erməni daşnaklarının başına gətirdikləri oyunları hər daşına, qayasına hopan faktlarla səslləndirir, Türk-Araz Respublikasının, Naxçıvanın muxtariyyətinin yaradılmasının səbəblərini açıqlayır bu gözəlliklər yurdu. Bu söhbətlərdə bəzən çarəsizliklər, bəzən haqsızlıqlar, bəzən də mübarizlik, əyilməzlik duyulur.

Danışır Naxçıvan, saatlarla olanlara-keçənlərə şahidliyindən danışır... Bədxah qonşusu Ermənistandan, onların torpaq iddialarının heç bitməyib, əsrlərlə davam etməsindən, şəhidlərindən, oğul həsrətli ataanalardan, ata həsrətli uşaqlardan söz açır. 70 il sovet imperiyasının buxovlarında əzilən diyar kimi danışır. Naxçıvanın ermənilər tərəfindən blokadaya salındığı 1990-cı illərdən danışır. Blokadanın ilk illərində insanların üzləşdiyi çətinliklərdən, məşəqqətlərdən, məxsus olduğu Azərbaycanın müstəqilliyi uğrunda buradakı mübarizələrindən, bu diyarın rolundan, mövqeyindən, Ulu Öndər Heydər Əliyevin Yaradanın bu torpağa bəxşişi, bu torpağın övladının millətinin, dövlətinin xilaskarı olduğundan danışır.

Gəzin qarış-qarış bu diyarı, dinləyin söhbətini... Muxtariyyətinin 100-cü, müstəqilliyinin 33-cü, blokadalı həyatının 34-cu və blokadalı-inkişaflı, tərəqqili dövrünün 30-cu ilini yaşayan bu diyarı dinləyin. Addımlayın səkilərlə, küçələrlə, bu qədim diyarın hər addımda şəhərində, kəndində təmənnasız baxa biləcəyiniz muzeyləri – Heydər Əliyev Muzeyi, Dövlət Bayrağı, Tarix, həmçinin Ədəbiyyat, Xatirə, Cəmşid Naxçıvanski muzeyləri, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Məmməd Arazın ev-muzeyləri, Bəhruz Kəngərli, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Xalça, Açıq Səma Altında muzeyləri, yurdumuzun bölgələrinin salnaməsi olan tarix-diyarşünaslıq muzeyləri ulu keçmişinin, ədəbiyyatının, mədəniyyətinin daşlaşmış səhifələrini vərəqləyir, özündən danışır. Azərbaycan dramaturgiyasının təməl daşı olduğunu söyləyir. Bu yurdu kəlməkəlmə, misra-misra anladır.

Nuh Peyğəmbərin məzarı, Xan sarayı, Naxçıvanqala, Əlincəqala, Möminə xatın, Gülüstan, Qarabağlar türbələri, Xanəgahı, Buzxanaları, qədim hamamları ilə tarixin özüdür Naxçıvan! Bütün bunların fonunda müasir universitetləri, kitabxanaları, kinoteatrları, yaşayış binaları, park, xiyabanları, müasir tikililəri ilə qədimliklə müasirliyin çiyin-çiyinə mənzərəsini seyr edəcəyiniz məkandır Naxçıvan!

Bu diyar hər addımda tarixindən söhbət açır. Xan sarayına gəlin, Naxçıvan xanlarının bu möhtəşəm iqamətgahında xanlar sülalələri – Kəngərlilərlə, Naxçıvanskilərlə tanış olun. Bu heykəllər şəhərində Dədəmiz Qorqudun qopuzunu sinəsinə sıxıb söylədiyi nəsihətlərini, Koroğlunun Misri qılıncını siyirib igidlik, qəhrəmanlıq dərslərini, Babəkin azadlıqdan gözəl başqa heç bir şeyin olmaması barədə mübariz söhbətlərini dinləyin.

İslam mədəniyyətinin beşiyi Naxçıvan qədim İmamzadə, məscid və pirlərdən söhbət açır. Ulu Yaradanın möcüzə əsəri olan “Əshabi-Kəhf”lə ümidlərin, pənahların, niyyətlərin, arzuların, gerçəklərin ünvanı olan Naxçıvan!

Qədim yallılar yurdudur Naxçıvan. Şərurunun el yallıları ilə xalqın etnoqrafiyasının güzgüsü, folklor qaynağı, festivallar diyarıdır, Naxçıvan. Bu diyar ərlər, ərənlər oylağı olan Naxçıvanqaladan zaman-zaman söhbət açdıqca bu gün burada milli dəyərləri, adətənənələri, əkinçilik mədəniyyəti ilə bağlı keçirilən festivallar, cəngi üstündə köklənmiş gənclərimizin fleşmobları keçmişlə müasir dövr arasında möhtəşəm bir körpü salır. Bu körpü gəncləri əcdadlarımıza qonaq aparır. Gənclər onların söhbətlərini dinləyib, nəsihətlərinə qulaq asdıqca bu diyarın layiqli övladlarına çevrilirlər.

Bütün dövrlərdə elm məbədi sayılan, hər il yüksək ballarla tələbə adını qazanan gəncləri ilə Azərbaycan təhsilinin qürurudur, Naxçıvan! Universitetlərində, kolleclərində yetişdirdiyi sabahın qurucularının himayədarı, xarici ölkələrdən bu elm ocaqlarında təhsil almağa gələn gənclərə açıq qapıdır, Naxçıvan!

İdmanın geniş meydanı, şahmata – dünyanın zəka sahiblərinə qucaq açan, beynəlxalq çempionatlar mərkəzidir bu diyar. Gənclərin asudə vaxtlarını, istirahətlərini qoynundakı zəngin fondlu kitabxanaları, kinoteatr, kafe, park, Əyləncə adası, istirahət mərkəzləri ilə təşkil etməklə yenə də özündən söhbət açdıqca köksünə sığdırdığı “Qızlar bulağı”ndan – gənc¬lərin əhd-peyman ocağından, isti yayın sərin guşəsi “Bazar gölü”ndən – var olanlardan, yaradılanlardan danışır.

Gənclər ilə bərabər, yaşlı insanlara da qayğı bəsləyir bu diyar. Onlara güllərin-çiçəklərin, yaşıl-lıqların ağuşuna aldığı park və xiyabanlarda nəvə-nəticələri ilə gözəl istirahətli xoş saatlar yaşadır. Təqaüdçülər evinin qapılarını insanların üzünə açmaqla buranı yaşlıların görüşmək, söhbətləşmək, paylaşmaq ünvanına çevirib.

Dəniz səviyyəsindən yüz metrlərlə yüksəklərə sığınan, yaşılın bütün tonlarını dağına-çəməninə səpən, doyumsuz gül-çiçəyi, buz bulaqları, heyrətamiz havası ilə qonaqlarını salamlayan Batabatın, Göygölün anasıdır Naxçıvan! Dörd bir tərəfini, sanki igidlərinin qızını-gəlinini qoruyurmuş kimi saran uca dağlarının zirvəsi buludlarla öpüşən diyardır, Naxçıvan. “Şişpapaqlı” bu dağların uca zirvəsindən daşların bağrını yara-yara süzülən, torpağın altından qaynayıb çağlayan 230-dək buz bulaqları, su mənbələri ilə süfrələrin yaraşığı, şəfa ocaqları, həm də təbii və mineral sular muzeyidir, Naxçıvan. “Badamlı”sı, “Sirab”ı, “Vayxır”ı, “Darıdağ”ı, “Nəhəcir”i, “Gülüstan”ı ilə dünyanı gəzən bir bəxtəvərdir, Naxçıvan!

Dünyanın neçə-neçə ölkəsindən yuxarı tənəffüs yolları, ağciyər xəstəlikləri və allergiyalardan əziyyət çəkib Duzdağ Fizioterapiya Mərkəzinə – bu duz qalereyasına gələnlərə bir udum nəfəslə şəfadır, Naxçıvan!

Dağ-dərələrinin yetirib-bitirdiyi saysızhesabsız nemətlərin hər biri unudulmaz damaq dadıdır. Bağ-bağatlarının bu yerlərin bol oksigenli, təmiz havasından, saf suyundan ərsəyə gələn yüz çeşidli meyvəsi – alması, heyvası, göycəsi, cəvizi, badamının dadtamı bir başqa, görünüşü bir başqadır. Torpaqdan boyverən min adda, min bir dadda, hər biri bir dərdin dərmanı olan bitkilərin – kəklikotunun, həmərsinin, yemişanın, baldırğanın, yarpızın, nanənin, qantəpərin vətənidir, Naxçıvan!

Təbiət gözəli Ordubadla qürur duyan, Şahbuzunun hüsnünü oxşayan, alınmaz qalası Sədərəklə öyünən, Culfasını Arazın nəğməsi ilə böyüdən, Babəkinə xalqının igid övladının adını verən, Kəngərlisini – sonbeşiyini bağrına basan müqəddəs anadır Naxçıvan! Paytaxt şəhərinin qədim məhəllələri – Ağabəylilər, Atabəylər, Anbar, Cığıllı, Cığatay, Çaparxanlı, Dabbaqxana, Dizə, Əlixan, Xıncov, Xoylu, Kəngərli, Qala, Qaraağac, Qurdlar, Şahab, Sallaqxana, Sarvanların hər biri bu qədim şəhərin bir tarixi guşəsi, bir sənətkarlıq ocağı, özünəməxsus adət-ənənəsi olan bir bölgəsidir.

Bu yurdun zəhmətsevər, torpağına, elinə bağlı insanlarının həmdəmidir, Naxçıvan. Köksündə əkinçiyə-biçinçiyə yer verən, taxıl zəmisi, ətirli təndir çörəyidir, göz baxdıqca uzanan, insanların bir qoyub min götürdüyü bərəkətli torpaqdır, Naxçıvan! Dağlarının, düzlərinin min adlı, min bir dadlı nemətləri ilə hər bir sakininə ruzi payı ayıran ata ocağıdır, Naxçıvan. Ulu Tanrının insanlar üçün ruzi mənbəyi yaratdığı arıların vurulduğu, aşiq olduğu məkandır, Naxçıvan! Yaylaqlarında, obalarında bol yaşıl otlarıyla qoyun-quzusunun bol südünü yağa, pendirə, qatığa, şora çevirən kənd adamlarının ehtiyacıdır, Naxçıvan!

Təbiətinin rəngarəng gül-çiçəyi, bitkiləri ilə boyadılan əlçim-əlçim yunun hanalarda sıralanan ipliyi, xalçalara vurulan min bir ilmə, naxış, hər biri tarixin bir səhifəsi olan qədim xalçalarına həkk olunan milli ornament, butadır, Naxçıvan!

Qonaqpərvər, xoşxasiyyət insanların yurdudur bu diyar! Milli mətbəxinin məşhur ət qovurması, əriştəsi, qayğanağı, qaysavası, kətəsi, lavaşı, çaşırı, baldırğanı ilə damaq dadıdır, Naxçıvan!

Naxçıvan sakinləri kimi, qonaqlarına, buraya üz tutan turistlərə yanlarında heç bir bələdçi olmadan özündən söhbət aça, danışa bilir. Təyyarədən enib, hava limanının möhtəşəm binasından bu diyara üz tutanları burada güllər qarşılayıb, qayıdarkən də güllər yola salır. O güllər illərdir, zəhmətin göz yaşları – alın təri ilə suvarılıb, gözoxşayan olub. Bu yolda yurdun əzəmət simvolu olan Haçadağının modeli ilə qonaqlarını salamlayır, “xoş gəlmisiniz”, – deyir, Naxçıvan!

Dağ qürur, müqəddəslik, tarix, yaddaş deməkdir. Bunlardan bəhs edən həmin model bu torpaq haqqında ilk təəssürat yaradır. Naxçıvan sakinlərinin məftunu olduğu kimi, qonaqlarının da xoş təəssüratlarının diyarıdır. İstirahət, gəzmək üçün hər il seçim edilən, hər kəsin heç də hər yerdə rast gəlmədiyi, 5000 il yaşlı, keçmişinə sadiq, bu günü heyran edən, qonağını yola salarkən “bir də mənə dön”, – deyən, danışan diyardır, Naxçıvan! Bir sözlə, hər şeyi ilə, bütövlükdə, ¬hüzurdur, Naxçıvan!..

***Mətanət Məmmədova***










# 2024-cü ilin hədəfləri: böyük zəfərlər, ardıcıl uğurlara doğru

## *PREZİDENT İLHAM ƏLİYEV: “Dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır”*

***Bəli, artıq əvvəlki illər kimi, 2024-cü ilin də ilk günlərini yaşayırıq. Bu, bir real faktdır ki, hər il başa çatarkən «növbəti ilə hansı uğurlarla qədəm qoyuruq» sualını qarşıya qoyuruq və bu sualı cavablandırmaq üçün ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial, mədəni, demokratik islahatlar və xarici siyasət sahəsində qazandığı uğurları bir daha təhlil etmək zərurəti duyulur. Azərbaycanın tarixinə uğurlu, qələbələr, Zəfərlər ili kimi daxil olan 2023-cü il estafeti 2024-cü ilə çox böyük nailiyyət və yeniliklərlə təhvil verdi.***

Dövlət başçısı ötən ilin ölkəmizin həyatında ən önəmli hadisə respublikamızın suverenliyinin bərpası olduğunu diqqətə çatdırmaqla Azərbaycan xalqının bu tarixi hadisəni heç vaxt unutmayacağını, həmin günün yaddaşımızda əbədi qalacağını vurğulayaraq milli yaddaşımıza tarixi çağırış etdi: «2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır» – deyən Prezident İlham Əliyev ölkəmizin iqtisadi, siyasi, hərbi, diplomatik uğurlarını əsaslı şəkildə diqqətə çatdırdı. Bu mühüm məqam xüsusi qeyd edildi ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda, bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda hamımız işimizin yarımçıq qaldığını yaxşı bilirdik. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi. Və bu gün .

### «ARTIQ ÜÇ İLDİR Kİ, DÜNYA AZƏRBAYCANLILARI BÜTÜN AZƏRBAYCAN XALQI KİMİ ALNIAÇIQ, ÜZÜAĞ YAŞAYIRLAR»

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirdi ki, tarixi Zəferimiz - İkinci Qarabağ müharibəsindəki Zəfər, antiterror tədbirləri, işğalçılardan azad olunmağımız, separatçı rejimin çökməsi bütün azərbaycanlıları haqlı olaraq bir araya, bir yumruq halına gətirir.

««Dəmir yumruq» bizim Zəfər salnaməmizin rəmzi idi. Bu gün, eyni zamanda, “Dəmir yumruq” birliyimizin rəmzidir. Azərbaycan xalqını, bütün dünya azərbaycanlılarını əmin etmək istəyirəm ki, “Dəmir yumruq” hər zaman yerində olacaq», - deyə dövlətimizin başçısı qeyd edib. Və onu vurğulayıb ki, bu gün bütün dünya azərbaycanlıları haqlı olaraq müstəqil Azərbaycanla fəxr edirlər: «Bu gün dünya azərbaycanlıları Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü tam yeni bir ovqatla qeyd edirlər. Artıq üç ildir ki, dünya azərbaycanlıları bütün Azərbaycan xalqı kimi ruh yüksəkliyi ilə yaşayır, başını dik tutub yaşayır, alnıaçıq, üzüağ yaşayırlar».

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirdi ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi. Çünki son 20 il ərzində Azərbaycan Prezidenti İlham Əliyevin qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar və ən əsası isə 2020-ci ildə tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən Müharibəsi Ali Baş Komandanımızın uğurlu “Dəmir yumruq” əməliyyatı ilə bütün dünyaya həm də bacarıqlı, qətiyyətli Sərkərdə olduğunu, xalq-ordu-dövlət birliyinin isbatladı.

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirdi ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi. Və xalqımız Azərbaycanın tarixinə uğurlu və Qələbə Zəferli illər kimi daxil olan 2020, 2021, 2022 və 2023-cü illər kimi 2024-cü ilin də böyük sevinc və qələbələr ili kimi xeyirli, bərəkətli, işğal olunmuş torpaqlarımızda – Qarabağımızın cənnət məkanına çevriləcəyinə və keçmiş məcburi köçkünlər “Böyük Qayıdış” Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. Bu gəlişi gözəl söz deyil, real faktlara əsaslanan nəticələrdir. Çünki əsl siyasət konkret, real iş görməkdən ibarətdir.

### «MƏN HESAB EDİRƏM Kİ, OKTYABRIN 15-DƏ AĞDƏRƏDƏ, ƏSGƏRANDA, XOCAVƏNDDƏ, XOCALIDA, XANKƏNDİDƏ QALDIRDIĞIM DÖVLƏT BAYRAĞIMIZ ULU ÖNDƏRİN XATİRƏSİNƏ ƏN BÖYÜK HÖRMƏTİN ƏLAMƏTİDİR»

Bəli, 2023-cü ilin əvvəlki illərdən fərqli olaraq daha əlamətdar olması Prezident İlham Əliyev cənablarının 29 sentyabr 2022-ci il tarixində «Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi haqqında» imzaladığı tarixi Sərəncamı oldu. Əslində xalqımız bu qərarı çoxdan və çox böyük səbirsizliklə gözləyirdi desək, düşünürəm ki, hisslərimizin səmimiyyətini, sevincimizin həddini-hüdudunu daha da düzgün ifadə etmiş olarıq. Çünki ümummilli lider Heydər Əliyevin 100 illik yubileyiin məhz 2023-cü ilə təsadüf etməsi tarixi hadisədir. Sərncamda deyilir: «Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir».

Bəli, ulu öndərimizin müəyyənləşdirdiyi siyasət daim ölkəmizə və xalqımıza işıqlı yol göstərir və zaman ötdükcə Onun Azərbaycanın inkişafı naminə gördüyü işlərin miqyası daha dərindən dərk olunur. Və Azərbaycan əvvəlki illərdə olduğu kimi, 2023-cü ili – «Heydər Əliyev İli»ni də uğurla, yüksəlişlə, həmrəyliklə, quruculuqla başa vurdu. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bildirdi ki, ulu öndərin 100 illiyi ölkə üzrə qeyd edildi: «Mən mənim üçün bu əziz günü - atamın doğum gününü Şuşada keçirdim. Şuşanın mərkəzi meydanında Azərbaycan xalqına müraciət edərək öz ürək sözlərimi bildirdim və dedim ki, Ulu Öndərin xatirəsinə ən böyük hörmət əlaməti bizim əməllərimizdir. Mən hesab edirəm ki, oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndidə qaldırdığım Dövlət Bayrağımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətin əlamətidir. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradımız Ulu Öndərin xatirəsinə ən böyük hörmətimizin əlamətidir».

### BU, QALİB LİDERİN HƏR ŞEYİ VAXTINDA VƏ MƏHARƏTLƏ ETDİYİNİN TƏSDİQİDİR

Bəli, Ali Baş Komandan nəyi edirsə, dəqiqliklə edir. 2023-cü il, 15 oktyabr tarixində Azərbaycan xalqı Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev prezident vəzifəsinə seçilməsinin 20-ci ildönümündə tarixi torpaqlarımız olan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd şəhərlərində və Əsgəran qəsəbəsində müqəddəs üçrəngli bayrağımızı qaldırdı. Bu şərəfli, tarixi gün cənab Prezidentin 20 illik gərgin fəaliyyətinin zəfər zirvəsi, xalqın öz Lideri ilə həmrəyliyinin, birliyinin təntənəsidir. Dövlətimizin başçısı gərgin əməyi, qətiyyəti, iradəsi ilə ötən 20 illik fəaliyyətində göstərdi ki, O, xalqına verdiyi bütün vədləri yerinə yetirmək iqtidarındadır.

Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söylədi ki, çünki bilirdik ki, biz buraya gələcəyik: «Mən düz 20 il bundan əvvəl – 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqına və özümə o sözü vermişdim. Bəli, biz 20 il gözlədik, daha doğrusu 17 il», - deyən dövlətimizin başçısı xatırladıb ki, üç il bundan əvvəl Şuşada bizim Bayrağımız qaldırıldı».

Prezident İlham Əliyev, həmçinin bildirib: “Ancaq biz istədiyimizə nail olduq, Azərbaycan xalqının onilliklər ərzində olan arzularını çin etdik. Azərbaycan xalqının ləyaqətini bərpa etdik. Biz torpaqlarımızı geri qaytarmışıq, ərazi bütövlüyümüzü bərpa etmişik, eyni zamanda, öz ləyaqətimizi bərpa etmişik».

Bəli, Azərbaycan nəyə qadir olduğunu bütün dünyaya göstərdi. Xüsusilə də, ən vacib məqam 2023-cü ilin Azərbaycanın Zəfər təqvimində dövlət suverenliyinin bərpası ili kimi həkk olunmasıdır. Bu, xalqımızın yaddaşında və dünyanın siyasi tarixində əbədi qalacaqdır. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində qeyd etdiyi kimi, 2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi: «2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq bu hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır».

### «SEPARATİZM BİZİM TORPAĞIMIZDA BİR DAHA BAŞ QALDIRA BİLMƏZ»

«Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz». Bu fikirləri Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində deyib.

“Azərbaycan Ordusu bir daha peşəkarlıq, qəhrəmanlıq, əsgər və zabitlərimiz fədakarlıq göstərmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Onu bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmadı. Həm Birinci, həm İkinci Qarabağ müharibəsi, həm antiterror əməliyyatı zamanı şəhid olmuş əsgər, zabitlərimizin, mülki şəxslərin, Xocalı qurbanlarının qisası döyüş meydanında alınmışdır”, - deyə dövlətimizin başçısı qeyd edib.

Prezident İlham Əliyev xalqa müraciətində Ermənistana və ona havadarlıq edənlərə növbəti mesajını da ünvanladı: «Bu gün Qərbdə ikili standartlar hökm sürür. Azərbaycan xalqı bunu yaxşı bilir və eyni zamanda, yaxşı bilir ki, biz bütün təzyiqlərə, bütün hədə-qorxulara, əsassız ittihamlara baxmayaraq bildiyimizi edəcəyik. Necə ki, etmişik, bundan sonra da edəcəyik».

«Ermənistan rəhbərliyi də bu tarixi dərslərdən nəticə çıxarmalıdır və özünü elə aparmalıdır ki, bizim qəzəbimizə tuş gəlməsin», - deyə dövlətimizin başçısı xüsusi vurğulayıb.

Bəli, «Dəmir Yumruğ»un gücü: Cəmi 24 saat ərzində separatçılar təslim oldu. Sözsüz ki, nəticə belə olmalı idi. Çünki biz haqq yalundayıq. Və bu qələbə sevincini xalqı ilə bölüşən Ali Baş Komandan, Prezident İlham Əliyev xalqına müraciətində bildirmişdir ki, bizə xor baxanlar, torpağımıza göz tikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, “Dəmir yumruq” yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dili ilə danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!”.

2023-cü ildə digər mühüm hadisə isə nüfuzlu, qlobal xarakterli tədbirin - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının gələn il ölkəmizdə keçirilməsinə dair qərarı .

**RƏFİQƏ KAMALQIZI**

# ABŞ-ın dindarlığı...

## *Yaxud, Vaşinqton Qarabağda ermənilərin dağıtdığı 65 məscidi niyə hesabatına salmayıb?*



***Dünya tarixindən az-çox xəbərdarıq. Həm sovetlərin dövründə, həm də bu günümüzdə dünya ölkələrinin tarixindən, baş verən hadisələrdən, münaqişə və müharibələrdən, onların hansı səbəbdən baş verməsindən, kimin günahkar, kimin işğalçı, kiminin də zərərçəkən olduğundan xəbər tutmaq, bilgi əldə etmək üçün kifayət qədər imkan və mənbə var. Gizli heç nə yoxdur, məsələn I Dünya müharibəsinin başlanması üçün bəhanənin nə olduğunu hər kəs, amma əsl məqsədin nə olduğunu az adam bilir. II Dünya müharibəsinin, Koreya və Vetnam müharibələrinin, İsrail-Fələstin didişməsinin, İran-İraq savaşının başlanma və bitirilmə səbəbləri də eynidir. Fərq məkan və zamandır.***

Ermənilərin kimliyi, hansı dinə-məzhəbə qulluq etmələri, haradan gəldikləri və kimlərin sayəsində Cənubi Qafqazda, daha doğrusu əzəli Azərbaycan torpaqlarında məskunlaşdırılmaları barədə tarixi mənbələrdə məlumat boğaza qədərdir. Arxivləri azacıq aralamaq və yazılanları vərəqləmək kifayətdir ki, bu xəyanətkar millətin kimliyini öyrənəsən. Neçə illərdir ki, Qərb dövlətlərinə isbat etməyə çalışırıq ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Onlar da sənin sözlərinə dəyər verirmiş kimi alnındakı qırışları düyünlədib özünü təəccüblənmiş adam kimi göruntüləyir, xarabasına gedən kimi sənin arxiv sənədlərinə istinadən boğazın cırıla-cırıla dediklərini bir andaca unudurlar. Əslində isə... bütün bunları törədənlər elə özləri deyilmi? Məgər Ermənistanın Azərbaycan torpaqlarından pay qoparılaraq yaradıldığını bilmirlərmi? Bilirlər, həm də it kimi.

ABŞ Dövlət Departamenti dünya ölkələrində dini azadlıqların vəziyyəti ilə bağlı illik hesabat hazırlayıb. Daha doğrusu Dini Etiqad Azadlığı üzrə Dövlət Komissiyasının (USCIRF) cızma-qarasını hesabat olaraq qəbul edib. Yəni heç bir araşdırma aparmadan, sorğu keçirmədən, kimsəni danışdırmadan, sadəcə Daniella Aşbaxyanın rəhbərlik etdiyi dövlət komissiyasının məkrli, qərəzli, ədalətdən uzaq, subyektiv hesabatının üzünü köçürərək onun Dövlət Departamentinin sənədi kimi yayıb. Nəzərə alsaq ki, bu qurum eyniadlı hesabatı uzun illərdir ki, hazırlayır, onda Ermənistan ordusunun işğalı altında qalan Qarabağda dağıdılan 65 məsciddən heç olmasa birinə qarşı törədilmiş barbarlıq, vandalizm barədə həmin sənəddə niyə bir cümlə belə yazılmayıb. Bəlkə, oralarda heç dini abidələr, məscidlər, ibadət yerləri olmayıb? Yox, bu



barədə demək olar ki, beynəlxalq təşkilatlara hər gün, hər ay, hər il məlumatlar göndərilib, amma reaksiya sadəcə sıfır.

### Bəs səbəb nədir?

Azərbaycanın və Ermənistanın xarici siyasətində fərqlilik, müstəqillik və asılılıq, özünə güvən və başqasının ümidinə qalmaq kimi bir-birinə zidd yanaşmaların mövcudluğu bəzi dövlətlərin iki Cənubi Qafqaz ölkəsinə baxışları formalaşdırır. Azərbaycan müstəqil siyasət yürüdür, regionun lider dövlətidir, bütün layihələrin müəllifi və icraçısıdır. Qalib ölkədir, yeni reallıqların müəllifi olmaqla bərabər həm də sülhü diqtə edən tərəfdir. Sülh müqaviləsini bütün beynəlxalq sənədlərə istinadən hazırlayıb qarşı tərəfə və beynəlxalq təşkilatlara təqdim edib. Bəli, həm beynəlxalq təşkilatların, həm də regionda söz sahibi olmağa çalışan böyük aktorların silahını əlindən alıb, onları tərksilah edib. Yəni ABŞ və Avropa dövlətlərinin sülh danışıqlarında moderatorluq cəhdinə bir "quş". Sülh sənədinə diqtə, yaxud təklif edəcəkləri heç nə yoxdur. Buna görə də onlar bunu həzm edə bilmirlər...

Əvəzində isə vassal Ermənistanı dövrəyə qoşaraq arzularına qovuşmaq istəyirlər. Bu gün Ermənistanda həm siyasi dairələr, həm də erməni cəmiyyəti sülh təkliflərini yozmaq yarışına çıxıblar. Maraqlıdır, müharibəni uduzdular, uzun onilliklər ərzində apardıqları işğalçılıq ənənəsinin, estafetinin davamını gətirə bilmədilər, amma şərt qoyurlar, Azərbaycanla eyni "çəkidə" olduqlarını hiss etdirməyə çalışırlar. Bunun mümkün olmadığını "böyük qardaş" və "bacıları" anlasalar da ermənilər buna alışa bilmirlər və nəticədə sülhə gəlməkdə çətinlik çəkirlər. Daha doğrusu 30 illik oğru, qəsbkar imicindən qurtula bilmirlər. Vaxtilə Qafan şəhərində erməni gənclərlə görüşündə Ermənistanın prezidenti, bəbək qatili Sarkisyan "gələcək nəsillərin Ağrı dağını erməni torpaqlarına qatmaq" missiyasını xatırlatmışdı. Əlbəttə, cəfəng söhbət idi, Türkiyəyə "kafa tutmağ"ın hansı nəticələrə varılacağını bilməmiş deyildi, Serjik.

Bu gün ermənilər qoşunların Ermənistan-Azərbaycan sərhədindən güzgü kimi çıxarılması təklifinin qüvvədə qaldığını israrla bildirirlər. Yəni, bu təklifə, yaxud tələbə Azərbaycanın razılaşmayacağını da bilməmiş deyillər. Ermənilərin xarici diplomatiyası da bunu belə xarakterizə edib ki, "Ermənistanla Azərbaycan arasında aparılan danışıqlar zamanı erməni tərəfi həmişə qoşunların dövlətlərarası sərhəddən aynalı çıxarılması təklifi ilə çıxış edib və o, qüvvədə qalır". Və Ermənistan XİN bu məsələ ilə bağlı müzakirələrə mümkün qədər tez başlamağa hazır olduğunu bəyan edib. Bəs sonra nə baş verə bilər? İrəvanda hesab edirlər ki, qoşunların sərhəddən çıxarılması, SSRİ Silahlı Qüvvələri Baş Qərargahının son xəritələri əsasında həyata keçirilməlidir. Eyni zamanda, Xarici İşlər Nazirliyi qeyd edib ki, Ermənistan üçün əsas prioritetlər iki ölkənin ərazi bütövlüyünün tanınması, SSRİ Silahlı Qüvvələri Baş Qərargahının son xəritələri əsasında sərhədlərin delimitasiyası üzrə işlərə mümkün qədər tez başlamaqdır.

### Daşnakların arzusu...

Daşnakların nümayəndəsi, "Ermənistan" fraksiyasından olan deputat İşxan Saqatelyan bildirib ki, Ermənistan və Azərbaycan arasında imzalanması ətrafında danışıqlar gedən sənədi çətin ki, sülh müqaviləsi adlandırmaq olar. "Sizdən xahiş edirəm ki, bu sənədi "sülh müqaviləsi" adlandırmayın, çünki onun sülhə heç bir aidiyyatı yoxdur və Azərbaycan tərəfindən zor tətbiq etməklə tətbiq edilib". Yenə ermənilərin ifasında növbəti cəfəngiyyat. Onlar hesab edirlər ki, bütün bunlar guya Azərbaycanın Ermənistana qarşı növbəti təcavüz planıdır. İşxan Saqatelyan qeyd edib ki, "sazişin mümkün imzalanması zamanı Azərbaycanın silahlı qüvvələri çox güman ki, Ermənistanın suveren ərazisində qalmağa davam edəcək, delimitasiya və demarkasiya baş verməyəcək və Artsaxın hərbi-siyasi rəhbərliyinin nümayəndələri Bakı




həbsxanalarında qalacaq. Belə şəraitdə sülhdən danışmaq tamamilə yersizdir".

Məsələ burasındadır ki, bütün ermənilərin katolikosu II Qaregin də təxribatçılıqla məşğuldur. Onun Milad xütbəsi zamanı Azərbaycan barədə dedikləri də bir din xadiminin yox, sanki quldur başçısının sözləridir. Yuxarıda ABŞ Dövlət Departamentinin Azərbaycan barədə qərəzli hesabatından yazmışıq.

Ardı Səh. 6

# ABŞ-ın dindarlığı...





Əvvəli-Səh-5

Azərbaycanı dini ayrıseçkilikdə günahlandıranlar II Qareginin bizim haqqımızda dediklərinə niyə diqqət etmirlər. Bu adam bizi müsəlman olaraq, azərbaycanlı olaraq ittiham edir, bizə qara yaxır. Qaregin əminliklə bildirir ki, "Azərbaycanın öhdəsindən gəlmək üçün qüvvələri birləşdirmək lazımdır. Gəlin dövlətimizi gücləndirmək üçün qeyrətli olaq. Artsax bizim üçün heç vaxt keçmişdə qalmayacaq". Bütün bunlar nə deməkdir, bəlkə Qaregin hamını sülhə çağırır, ədalətli olmağımızı istəyir? Əlbəttə, yox. Onun istəyi yeni müharibədir, yeni soyqırımıdır.

### Arsız və "Artsax"sız

Ermənistan onilliklər boyu özününkü hesab etdiyi, lakin heç vaxt tanımadığı və sonda ondan məhrum olduğu tanınmamış "dqr" olmadan yaşamağı öyrənir. Yeni reallığı 2023-cü ilin nəticəsi, hətta baş nazir Nikol Paşinyanın hakimiyyətinin nəticəsi hesab etmək düzgün deyil. Ermənistan üçün yenidən faciəli olduğu üzə çıxan 2023-cü ilin sonunda respublikanın baş naziri Nikol Paşinyan açıqlama verdi. Dekabrın 23-də jurnalist Petros Qazaryana verdiyi müsahibədə o, Qarabağ probleminin İrəvanın maraqlarına uyğun həlli şansının olmadığını bəyan edib. Hökumət başçısı bunun mümkünsüzlüyünü səbirlə və çox təfərrüatı ilə jurnalistə izah edib. Səbəblər siyahısına Ermənistanın tənhalığı da daxildir: münaqişə başlayandan bütün dünya Qarabağı Azərbaycanın tərkib hissəsi hesab edirdi. Nikol Paşinyan bu etirafla kifayətlənməyib: "Həmişə, bizim hökumətdən tutmuş, sələflərimizə qədər, 70-80% - daha yaxşısı, faizlərə və riyazi hesablamalara getməsək - Ermənistan Respublikasının resurslarının əsas payı "Dağlıq Qarabağ problemi"nin üzərinə düşür". Yəni o, açıq mətnlə deyib: "DQR" ölkənin iqtisadi inkişafını ləngidirdi.

Həm də təkcə iqtisadi deyil: "Ermənistan Respublikasının xarici siyasəti yox idi, Dağlıq Qarabağ siyasəti var idi, Ermənistan Respublikasının təhlükəsizlik gündəliyi yox idi, Dağlıq Qarabağ üçün təhlükəsizlik gündəliyi və s. və s.". Qarabağ məsələsi Ermənistanda həmişə son dərəcə həssas olub. Nikol Paşinyanın bütün ölkəyə dediklərini isə erməni siyasətçiləri ucadan demirlər. Və yenə də o, birinci deyildi. Baş nazirin bəyanatları ilk prezident Levon Ter-Petrosyanın dörddə bir əsr əvvəl dediyi sözləri demək olar ki, təkrarlayırdı. Ter-Petrosyan 1998-ci il yanvarın 8-də Ermənistan Təhlükəsizlik Şurasının iclasında deyib: "Dağlıq Qarabağ münaqişəsinin nizamlanmamış vəziyyəti Ermənistanın iqtisadi inkişafına mənfi təsir göstərir".

Daha sonra o, hökumət üzvlərini Qarabağ məsələsində Azərbaycanla tezliklə güzəştə getmək lazım olduğuna inandırmağa çalışıb. Həmin gün Ter-Petrosyanı dinləyənlər arasında gələcək iki prezident - Qarabağ sakinləri Robert Köçəryan və Serj Sarkisyan da var idi. Birincisi baş nazir, ikincisi Daxili İşlər Nazirliyinin rəhbəri vəzifəsini tuturdu. Levon Ter-Petrosyanın arqumentləri arasında bu da var idi: "Gələcəkdə Rusiya Azərbaycanla mehriban qonşuluq münasibətlərinin qurulması istiqamətində ciddi səylər göstərəcək və bu halda Ermənistan Cənubi Qafqazda yeganə müttəfiqi və strateji tərəfdaşı üstünlüyünü itirəcək".

1998-ci ildə deyilən bu ifadə bu gün aktualdır: Moskva ilə Bakı arasında daha çox qarşılıqlı anlaşma var. Moskva ilə İrəvan arasında isə qalmaqallar daha çoxdur. 1998-ci ildə Levon Ter-Petrosyan güzəştə getmək istəyinin əvəzini ödədi. Və o, güzəştə getməyə cəsarət etdiyi üçün prezident vəzifəsindən getməyə məcbur oldu. İstefa tələb edənlər arasında Köçəryan və Sarkisyan da var. Hələ də Azərbaycan üzərində qələbəyə sevinən və heç bir güzəştə getməyə hazır olmayan cəmiyyətə çatmağa çalışan Ter-Petrosyan: "Müharibə, yoxsa sülh? Daha ciddiləşməyin vaxtıdır. Ermənistan və Qarabağ bu gün həmişəkindən daha güclüdür, lakin münaqişə həll olunmasa, bir-iki ildən sonra ölçüyəgəlməz dərəcədə zəifləyəcək. Bu gün rədd etdiyimiz şeyi gələcəkdə istəməli olacağıq, amma tariximizdə bir dəfədən çox baş verdiyi kimi almayacağıq". Petrosyan 2020 və 2023-cü ildə baş verənləri 25 il əvvəl dəqiqliklə deyirdi.

### Başqa bir Ermənistan

Əgər 1998-ci ildə Bakı ilə anlaşmağı və güzəştə getməyi təklif edən prezident getməli idisə, bu gün ölkənin müharibəni uduzduğu və onun üçün mühüm bir bölgəyə nəzarəti itirdiyi baş nazir Ermənistanı idarə etməkdə davam edir. Və hazırda bunun alternativi yoxdur. 2020-ci ildə, ikinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra Nikol Paşinyan artıq həyat qabiliyyətli siyasətçi deyilmiş kimi görünürdü. Bundan sonra başlayan etirazlar hakimiyyətə yaxşı heç nə vəd etmirdi. Lakin Paşinyan təkcə sağ qalmadı. 2021-ci ildə növbədənkənar parlament seçkilərinə getdi. Onun "Mülki Müqavilə" partiyası seçkiləri əhəmiyyətli üstünlüklə qazandı. Nikol Paşinyan yenidən ölkəyə rəhbərlik edir.

Azərbaycan 2023-cü ilin sentyabrında Qarabağda ildırım sürəti ilə xüsusi əməliyyat keçirdikdən və bundan sonra tanınmamış "dqr"in qalıqları Bakının nəzarətinə keçdikdən sonra İrəvanda yenidən etiraz aksiyaları başladı. Onlar təxminən bir həftə davam etdi və hakimiyyət üçün problem olmadı.

Paşinyan günahını etiraf edir ki, hökumət əvvəllər xalqa "Dağlıq Qarabağ məsələsi ilə bağlı bizim, yəni erməni ideyalarımızı və istəklərimizi həyata keçirməyin mümkünsüzlüyündən" danışmayıb. Nikol küçə siyasətçisidir. Cəmiyyətdə özünü yaxşı hiss edir. 2008-ci ildə o, Levon Ter-Petrosyanla çiyin-çiyinə Serj Sarkisyanın prezident seçilməsinə etiraz edib. Ter-Petrosyanın rəhbərlik etdiyi müxalifət buna nail ola bilmədi. Etirazların yatırılmasından sonra Nikol Paşinyan gizləndi və sonra bir müddət həbsxanada qaldı. On ildən sonra - onsuz da Ter-Petrosyansız - o, küçəyə rəhbərlik etdi və hakimiyyəti Serj Sarkisyandan aldı. 2021-ci ildə öz hakimiyyətini müdafiə etmək lazım gələndə Nikol Paşinyan yenidən "qabiliyyətini" nümayiş etdirdi. İndi erməni cəmiyyətinə DQR-in niyə məhvə məhkum edildiyini izah edir. Bəlkə də onların mövcud olmayacağını hiss edir. Ermənistan laqeyddir, döyüşmək, mitinq keçirmək istəmir. Ermənistanda zəif müxalifət var və hakimiyyəti güclü edən də əsasən budur.

Ermənilər yeni münaqişəyə getmək üçün vəsait toplayır, yoxsa sülhə getmək və bu resurslardan Ermənistanda dövlətçilik yaratmaq üçün istifadə etmək üçün? Bu həm də baş nazirin jurnalist Kazaryana verdiyi müsahibədən sitatdır. Paşinyan cəmiyyətə seçim təklif edir: yeni müharibə, yoxsa dövlətçiliyin formalaşması? Ermənistan cəmiyyətinə basqılar var, hər yerdən onları sıxırlar, xüsusən də xaricdən. Diaspor ermənilərə savaş üçün pul göndədir, sülh üçün yox. Müharibəni seçmək isə... İndi seçim vaxtıdır.

***V.VƏLİYEV***

# "Azərbaycanla Ermənistan arasında sülh danışıqları bir neçə il davam edə bilər"

"Ermənistanla Azərbaycan arasında faktiki olaraq danışıqlar prosesi gedir. 30 illik münaqişə tarixinə baxdıqda danışıqlar bu qədər intensiv olmamışdı. Xüsusilə də sərhəd komissiyalarının keçirilməsi, reqlamentin tərtib edilməsi, tərəflər arasında masada danışıqlar sənədinin olması və vaxtaşırı bu sənədin iki tərəf arasında dəyişdirilərək bir-birinə göndərilməsi kimi məqamlar faktiki olaraq danışıqların getdiyini göstərir. Bu belə öz-özlüyündə sülhə olan inamı artırmağa kifayət edir. Yəni 30 il ərzində bu qədər hadisə baş vermədişdi və bunlar kifayət qədər mühüm nüanslardır". Bu barədə SİA-ya açıqlamasında politoloq Turan Rzayev deyib.




Onun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyan da sülhə maraqlı olduğunu deyir və ötən il Azərbaycanın ərazi bütövlüyünü rəqəmsal olaraq da tanıdığını bildirmişdi: "Bunların fonunda demək olar ki, Ermənistan özü sülh müqaviləsinə maraqlıdır. Lakin burada belə bir məqam var ki, 10 noyabr bəyanatına görə Azərbaycanın qalib tərəf kimi şərtləri var. Bu şərtlərin Ermənistan tərəfini qane etməyən tərəfləri var. Ermənistan qarşılıqlı maraqlar çərçivəsində regionda sülh prizmasında prosesin həll edilməsini istəyir. Azərbaycan tərəfinin bəzi şərtləri var ki, bu tərəflər arasında mübahisəli məqamlardır. Sülh sənədində 70% məsələlər razılaşdırılıbsa, 30% həllini gözləyən məqamlar var. Bunlar Qazaxın kəndləri, anklav və esklav məsələsi, dəhliz olub-olmayacağı kimi məsələlərdir. Bütün bunlar hamısı müzakirəyə ehtiyacı olan məsələlərdir. Biz sülh müqaviləsinin imzalanmasını bu qədər qısa müddətə gözləməməliyik. 2023-cü ilin sonuna qədər müqavilənin imzalanacağı deyilirdi. Amma bu elə də asan bir şey deyil. İlkin sülh sənədi kimi bu ilin birinci yarısında bir sənəd imzalana bilər. Lakin bu belə yekun sülh müqaviləsi olmayacaq və tərəflər arasında yekun sülh müqaviləsi üçün danışıqlar hələ bir neçə il davam edə bilər".

T.Rzayev bildirib ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını istəməyən ölkələr var: "Misal olaraq Fransa, Rusiya kimi ölkələri göstərə bilərik. Bu ölkələr slüh müqaviləsinin imzalanmasını istəmir, çünki Cənubi Qafqaza müdaxilə imkanları yalnızca konflikt üzərindəndir. Rusiya indiki məqamda sülh müqaviləsinə maraqlı olduğunu göstərsə də əslində bu belə deyil. Söhbət burada konkret bir sülh müqaviləsindən deyil, sadəcə Rusiya reallıqları çərçivəsində prosesində 1988-ci il versiyasına qayıtması deməkdir. Fransa da həmçinin Cənubi Qafqaza müdaxilə etmək istəyir. Xüsusilə də Azərbaycanla son illər yaşanan gərginliyi nəzərə alsaq Fransa bu sülhün olmasını istəmir. Amma bütün bunlara baxmayaraq Azərbaycan Prezidentinin də əvvəldən dediyi kimi "Sülh regiona lazımdır, mütləq şəkildə regional formatlarda əldə edilməlidir". Azərbaycan və Ermənistan nümayəndələri ikili danışıqlara davam edəcəyi təqdirdə ən azından ilkin sülh müqaviləsinin şahidi ola bilərik".

# Azərbaycanda növbəti devalvasiya olacaqmı?

"Azərbaycanda 2015-ci il devalvasiyasından sonra müxtəlif dövlət proqramları tətbiq olunmağa başlanıb. İstənilən Azərbaycan vətəndaşı gördü ki, bu dövlət proqramları uğurlu formada həyata keçirilir. 2015-ci ilin sonundan bu günə qədər dolların məzənnəsi stabil olaraq saxlanıb". Bunu SİA-ya açıqlamasında iqtisadçı ekspert Asif İbrahimov deyib. Onun sözlərinə görə, dolların məzənnəsinin stabil saxlanması müxtəlif alətlərdən istifadə edilməklə həyata keçirilib: "Dolların əmsalı Mərkəzi Bank tərəfindən 1 manat 70 qəpik olaraq müəyyənləşdirildi və saxlandı. Bir çox potsovet ölkələri kimi Azərbaycan da SSRİ-dən ayrıldıqdan sonra sosializmdən kapitalizmə keçməyi çətin başa gəldi. Bütün infrastruktur, müəssisələr, iqtisadi aktivliyi təmin edən qurumlar dövlətin balansında idi. Bununla yanaşı aktiv əmək qabiliyyətli əhali də həmişə dövlət qurumlarında çalışmışdı. Bu da dövlət büdcəsinə yük idi".



Ekspert bildirib ki, Azərbaycanda müstəqillik əldə edildikdən sonra bu keçid mərhələlərlə başladı: "Buna baxmayaraq illərdir dolların əmsalı 1 manat 70 qəpik həcmində saxlanılır. Azərbaycan Prezidentinin yürütdüyü siyasət, həyata keçirdiyi islahatlar bu istiqamətdə bizə müsbət proqnozlar verməyə əsas verir. Düşünürəm ki, yaxın 6 ay müddətində dolların məzənnəsində hansısa dəyişiklik gözlənilmir".



***Rəşid Qarayev***

***Heç bir cəmiyyət müharibəni arzulamamalı, sülhə qarşı olmamalıdır, çünki müharibə yalnız insan tələfatı, iztirab, dağıntı, qırğın, qan, göz yaşı gətirə bilər. Eyni zamanda, heç bir cəmiyyət, təbii ki, normal cəmiyyət sülhə qarşı ola bilməz, çünki sülh təhlükəsizlik, firvanlıq və ümumuyyətlə, hər baxımdan çox qiymətli və dəyərdir. Mübarizə, döyüş, müharibə yolu ilə bir xalqa, dövlətə məxsus olanı ələ keçirmək istəyən insanlar, tayfalar və dövlətlər hər zaman olub və olacaq. Məhz buna görə də sülhün, rifahın təmin edilməsi üçün aparılan mübarizə bütün sadalanan arzuolunmaz halların qarşısının alınması üçün əsas şərtdir.***

# Ermənistan üçün 2024-cü il: BƏDBİNLİK, YOXSA NİKBİNLİK?



2024-cü il, rəsmi İrəvanın doğru, düzgün qərarlar qəbul edəcəyi halda, Ermənistan üçün nikbinlik gətirən bir il ola bilər və ermənilər sülhə nail olmağa çalışacaqları təqdirdə, cari il ən azından həmin ölkə üçün müsbət istiqamətdə yeni başlanğıc olar. Lakin erməni cəmiyyətini qarışdırmaq istəyənlərin, eləcə də utopiya və xəyallara yer verənlərin, yeni miflər qondarmağa üstünlük verənlərin yanlışlıqları səbəbindən daha "pis" il də ola bilər və bu da həmin cəmiyyətin bədbinliyini daha da artırar. İstənilən halda qarşılaşmalı olacaqları vəziyyət, yəni ilin bədbin və ya nikbin olacağı ermənilərin özlərinin seçimindən, Ermənistan tərəfinin atacağı addımlardan asılıdır. Həmin ölkə bütövlükdə ya uydurduğu nağıllardan, miflərdən yaxa qurtararaq, ərazi iddiasına, işğalçılıq siyasətinə, təcüvüzkarlıq niyyətlərinə son qoyaraq, yeni ildə sülh yolunda istiqamət götürərək, nikbin ola bilər, ya da bu vaxta qədər inandıqları yalan uydurmalara yenə də inanacaqları təqdirdə, bundan sonra da məğlubiyyətlərlə, səfalətlə, nəticədə də bədbinliklə barışmalı olar.

Hazırkı dövrdə erməni xalqı, öz tarixinin ən ləkəli, ən rüsvayçı dövrünü yaşadığı qənaətindədir. Əslində, yalnız bu mənada haqlıdır da. Çünki sözün əsl mənasında, Ermənistan çox acınacaqlı, çox təhlükəli bir durumdadır. İstənilən anda vətəndaş müharibəsinin belə, indi xaos hökm sürən həmin ölkədədə ola biləcəyi barədə proqnozlar da yetərincədir. Həmin ölkə vətəndaşlarının qətiyyən gələcəyə nikbin baxışları yoxdur və məhz bu baxımdan ermənilərin kütləvi şəkildə, böyük sayda öz yaşadıqları, məskunlaşdıqları yerləri tərk edərək, ölkə hüdudlarından kənarda yaşamağa üstünlük vermələri də səbəbsiz deyil. Səbəb odur ki, Ermənistanda bədbin əhval-ruhiyyə var və vətəndaşlar ümidsiz, gərgin, sıxıntılı vəziyyətdədirlər. Bunu müşahidə etmək üçün sadəcə həmin cəmiyyətə bir baxış belə kifayət edir. Ermənistan vətəndaşlarının hansı əhval-rühiyyədə olması, daxili çəkişmələr, narazılıqlar, ermənilərin öz itgiləri ilə barışa bilməməsi göz önündədir. İrəvanın düz mərkəzində bir-birini əvəz edən və hələlik müvəqqəti yatırılan narazılıq dalğası, etiraz aksiyaları da səbəbsiz deyildi və hələ bundan sonra da təkrarlanacağı təkzib edilə bilməz. Bütün bunlar ermənilərin nə dərəcədə bezdiyini, nə dərəcədə bədbin olduqlarını göstərir. Ermənistanda hələ də məğlubiyyət, özü də rüsvayçı məğlubiyyət ab-havası hökm sürür və həqiqətlərin, reallıqların, sülhün vacibliyinin dərk edilməyəcəyi təqdirdə bu hal davam edəcək və daha da kəskin şəkil alacaq.

Heç şübhəsiz ki, bütövlükdə bir xalqı həmişəlik aldatmaq mümkün deyil. Tarixin hansısa bir dönəmində həqiqətə uyğun olmayan, yalan məlumatlar da, vədlər də xalqa verilə bilər və bununla da erməni avantüristlər erməni xalqını aldatmış ola bilərlər, necə ki, bunu edə biliblər. Amma sonsuza qədər belə yalanlarla xalqı aldadacaqlarına ümid edənlər yanılırlar. Çox güman ki, erməni xalqı bu vaxta qədər onlara verilən vədlərin də, miflərin də yalan olduğunu başa düşər. Çünki məhz buna görə, bu yalanlara görə başlarına həmin avantüristlər dəfələrlə müsibətlər gətiriblər və ermənilər artıq bu mənada yetərincə təcrübəli olmalıdırlar. Əslində, elə bu yalanların fonunda da ermənilər öz ölkələrinə, öz dövlətlərinə, ümumiyyətlə gələcəklərinə olan inamı da itiriblər. Ermənistanın dövlət qurumlarının belə iflic vəziyyətində olduğunu onlar görür və yəqin ki, dərk edirlər. İndi həmin ölkə rəhbərliyinin birinci növbədə xalqın etibarını, etimadını qazanmağa ehtiyacı var ki, bu da məhz sülh prosesindən keçən mərhələ ola bilər və yaxın zamanda vətəndaşların rifahının təmin edilməsi bədbin əhval-ruhiyyənin aradan qaldırılması üçün yeganə şərt hesab olunur. Qonşu ölkələrlə normal qonluşuq münasibətlərinin yaradılması ilə, qlobal layihələrdə iştirak etməklə, Ermənistan marginallaşmış vəziyyətdən çıxa bilər və nikbin əhval-ruhiyyənin yaranmasına da elə bundan sonra erməni cəmiyyətinin ümid etməsinə dəyər.

Sözsüz ki, qonşu dövlətlərlə, region ölkələri ilə, bütövlükdə dünya dövlətləri ilə etimadı bərpa etmədən hansısa uğurdan danışmaq olmaz və Ermənistan da məhz ilk növbədə, etimadı bərpa etməlidir, hansı ki, bu da elə sülh prosesindən keçir. Ermənistan gah Qərbin, hag da Rusiyanın maraqlarından çıxış edir. Bu ölkənin eyni vaxtda iki stulda oturmaq istəyi hər addımda özünü göstərir və bununla da nəyə isə nail olmaq cəhdi mənasızdır. Ümumiyyətlə, əgər ölkənin təhlükəsizliyi belə sual altındadırsa, o zaman sosial-iqtisadi problemlərin həllindən, vətəndaşların rifahından, nikbin ab-havadan qətiyyən danışmaq olmaz. Ermənistanda vəziyyət hələlik dəyişməz olaraq qalmaqdadır. Beləki, çünki varlı avantüristlər varlanmaqda, yoxsullar isə daha da yoxsullaşmaqdadırlar. Təqaüdlərin, əməkhaqlarının hədsiz dərəcədə aşağı olması, bununla yanaşı qiymətlərin əhəmiyyətli dərəcədə artması Ermənistan vətəndaşlarını pal çətin duruma salmaqdadır. Bir zamanlar, daha dəqiq desək, 2018-ci ildə Ermənistan hakimiyyəti iqtisadiyyatın inkişafı, qiymətlərin kəskin endirilməsi barədə vəd vermişdi, lakin beş il keçməsinə baxmayaraq, əsas tələbat mallarının qiymətlərində əhəmiyyətli dərəcədə, bəzi məhsullarda dəfələrlə artım müşahidə olunması erməni cəmiyyətinin vəziyyətinin nə yerdə olması barədə hansı qənaətə gəlmək olduğunu bəlli edir. Yalan vədlər verib vətəndaşları aldatmaqla, hakimiyyət kürsüsünü qoruyanlar vergi və rüsumları kəskin şəkildə artırırlarsa, şəhərdaxili nəqliyyatın qiymətlərində də artım edilirsə, deməli, bədbinliyə son qoyulacağı ümidi barədə danışmaq belə olmaz. Vətəndaşın cibinə girmədən Ermənistan büdcəsi doldurulmasa, ölkənin inkişafı təmin edilməsə, bunun üçün də qonşu ölkələrlə münasibətlər normallaşdırılmasa, qlobal layihələrdə iştirak edilməsə, bu ildə də erməni cəmiyyətini, hayları məhz bədbin əhval-ruhiyyədə görməli olacaqlar.

Hələ də əmin-amanlıq olacağına, təhlükəsizliyin təmin ediləcəyinə söz verənlər Ermənistanın sülhə imza atmasını reallaşdırmayana qədər bu vədlərində də yalançı çıxacaqlar. Çünki onların gətirəcəklərini söz verdikləri firavanlığın, əmin-amanlığın, təhlükəsizliyin və ümumiyyətlə, gələcəyin necə olacağını təsəvvür belə etmək çox çətin məsələdir. Ona görə çətin məsələdir ki, həmin vədlərini reallaşdıracaq əsasları yoxdur və bundan sonra da xalqı aldatmaqla heç nəyə nail ola bilməzlər. Yalançı vədlərlə heç nə etmək olmaz və xalqı bədbin əhval-ruhiyyədən çıxarmaq üçün əməli fəaliyyət, düzgün iqtisadi, sosial siyasət tələb olunur. Bəzi erməni əsilli politoloqlar özləri də etiraf edirlər ki, biabırçılıqdan, rüsvayçılıqdan qurtulmaq üçüm dəyişikliklər etmək, doğru addımlar atmaq, sülh prosesini sürətləndirmək, region ölkələri ilə münasibətləri normallaşdırmaq, bununla da qlobal layihələrə qoşulmaq və iqtisadi artıma zəmin yaratmaq gərəkir. Əks halda, erməni cəmiyyətini elə məhz 2024-cü ildə də hər kəs bədbin görməli olacaq və cari ildə nikbinlikdən qətiyyən danışmaq mümkün olmayacaq, çünki ölkənin səfalət içərisində, xaos vəziyyətində olması fonunda bu il ermənilər üçün daha qorxulu ola bilər.

***İnam Hacıyev***

# 2030: Dünya və Azərbaycan üçün iqtisadi proqnozlar nə vəd edir?

***Dünyanın nüfuzlu analitikləri mütəmadi olaraq dünyanın gələcək mənzərəsi ilə bağlı təhlillərini hazırlayır. Son dövrlərdə isə iqtisadi və sosial proqnozlar daha çox maraq doğurmağa başlayıb, çünki hazırda dünyada hökm sürən pandemiya və sosial-iqtisadi böhranlar insanları dünyamızın gələcəyi ilə bağlı daha çox düşünməyə məcbur edir. Bu yazıda, əsasən, iqtisadi proqnozlara və təhlillərə üstünlük verəcəyik.***



*Analitiklər: İqtisadi güc balansı dəyişəcək, neft ucuzlaşacaq, əhali 8,5 milyardı keçəcək, su və ərzaq çatışmazlığı yaranacaq, sənaye istehsalı artacaq...*

Hazırkı proqnozlara görə, 2030-cu ildən sonra dünyada sosial-iqtisadi vəziyyət kökündən dəyişəcək. 4-cü sənaye inqilabı istehsalı tamam dəyişəcək, məhsul istehsalı artacaq. Yer əhalisi 8,5 milyarda catacaq. Suya və enerjiyə tələbat təxminən 2 dəfə, qidaya tələbat isə 30% artacaq. Şimali Afrika və Mərkəzi Asiya kimi bəzi regionlar qida və su çatışmazlığı kimi ağır problemlərlə qarşılaşacaq. Alternativ enerjilərə keçidlə bağlı neftə tələbat azaldığından neft ixracından asılı ölkələr çətin vəziyyətə düşəcək. Dünyanın iqtisadi güc balansı əhəmiyyətli şəkildə dəyişəcək.

### 2030: Dünya iqtisadiyyatında güc mərkəzi dəyişəcək

Analitiklərə görə, 10 ildən sonra OPEK-in neftin qiymətlərinə nəzarəti tam pozulacaq ki, bu da hər şeydən göründüyü kimi, neft və qaz ixracından asılı olan iqtisadiyyatlar üçün mənfi nəticələrə səbəb olacaq. Bununla yanaşı, informasiya texnologiyalarının inkişafı iqtisadi məhsuldarlığa geniş təsir göstərməyə başlayacaq.

Hazırkı hegemon ölkələrin qlobal təsiri itəcək. Çin, Hindistan, Rusiya, Braziliya, İndoneziya, Cənubi Afrika kimi regional iqtisadiyyatlara malik ölkələrin dünya iqtisadi sistemində rolu daha da artacaq. Növbəti 10-15 ildə yeni texnologiyaların inkişafı nəticəsində transmilli şirkətlər sürətlə inkişaf edən bazarlara daha çox diqqət verəcək.

Proqnoza görə, 2030-cu ilədək Çin iqtisadiyyatı ABŞ iqtisadiyyatını tamamilə "taxtdan endirəcək". Hindistan da dünya iqtisadiyyatında gücünü xeyli artıracaq. Dünyanın iqtisadi mərkəzi tam olaraq Cənub-Şərqi Asiyaya keçəcək. II Dünya Müharibəsindən qazanclı və varlanmış şəkildə çıxaraq inkişafını sürətləndirən ABŞ-in və Avropanın iqtisadi hakimiyyət dövrü bitir.

Proqnozlara görə, karbohidrogenlər bazarı üçün yeni texnologiyaların istehsalı və alternativ enerji sahələrinin inkişafı neftin ucuzlaşmasına səbəb olacaq ki, nəticədə iqtisadiyyatı neft ixracından asılı olan ölkələr üçün ciddi problemlər yaranacaq.

Analitiklər 4-cü sənaye inqilabının dünya iqtisadiyyatını tamamilə dəyişəcəyini, yeni texnologiyalarla məhsul istehsalının artacağını ehtimal edirlər. Ərzağa və dərmanlara və texnika mallarına tələbat artacaq. Bu səbəbdən texnoloji məhsullar istehsal edən ölkələrin, həmçinin ərzaq və dərman istehsalı çox olan ölkələrin gəlirləri artacaq.

### Öz xammalı olmayan ölkələr iqtisadi tənəzzülə məruz qalacaq

Bir çox analitiklər Rusiya iqtisadiyyatının gələcəyini optimist qiymətləndirirlər. Rusiya Strateji Sosial-İqtisadi Araşdırmalar Mərkəzi hesab edir ki, 2030-cun ildən sonra dünyanın iqtisadi cəhətdən ən qüdrətli 5 dövləti arasında Çin, Hindistan, ABŞ, Almaniya ilə birgə Rusiya da olacaq. Hazırda Rusiya 7-ci iqtisadiyyat sayılır.

"Dünyanın iqtisadi mənzərəsi göstərir ki, ehtiyatları həddən artıq istismar olunmuş Qərb və Uzaq Şərq ölkələri durğunluq dövrü yaşayacaq. Dünya əhalisi artır, təbii ehtiyatlar sürətlə istismar olunur, bir çoxları tükənmək üzrədir. Artıq inkişaf etməkdə olan ölkələr sürətlə sənaye texnologiyalarına yiyələnirlər, öz xammallarını ucuz qiymətə Qərbə satmaq əvəzinə özləri istehsal etməyə başlayırlar. Bu tendensiya artıq təbii ehtiyatları tükənmiş, xammalı ehtiyatı və enerji resursları olmayan iri sənaye dövlətlərinin iqtisadiyyatını zəiflədəcək"- mərkəzin proqnozunda bildirilir.

Analitiklər hesab edir ki, dünyanın ərazisinə görə ən böyük ölkəsi olan Rusiyada nəhəng təbii ehtiyatlar, güclü aqrar sektor, böyük elmi-texniki potensial və sənaye bazası var. Uzaq Şərqdə, Sibirdə və Arktikada mənimsənilməmiş nəhəng mineral ehtiyatlar var. Rusiya dünyanı gözləyən su problemini də yaşamayacaq.

Mərkəzin ekspertləri hesab edir ki, ABŞ və iri Qərbi Avropa dövlətlərinin iqtisadi hegemonluğu 2030-35-ci illərdə tam başa çatacaq. Bu ölkələrin öz təbii ehtiyatları tam bitəcək və xaricdən xammal almaq çətin olacaq. Eyni aqibət Çini, Avropanın bir sıra ölkələrini, Yaponiyanı və Cənubi Koreyanı da gözləyir.

ABŞ-a gəldikdə, analitiklər hesab edirlər ki, bu ölkə 3-cü dünya ölkələrin sərvətlərini istismar etmək və qlobal valyuta-birja əməliyyatları yolu ilə daha çox gəlir əldə edərək istehlaka və komforta öyrəşdiyi üçün tənəzzülə düçar olacaq. Müharibələrə və münaqişələrə son qoyulsa, hərbi-sənaye kompleksi də çökəcək.



### 2030-da sosial-iqtisadi sahədə Azərbaycanı nə gözləyir?

Azərbaycana gəldikdə, 30-cu illəri tam proqnozlaşdırmaq çətindir, amma bu müddətdə təxmini vəziyyəti təsəvvür etmək olar. Bütövlükdə, növbəti 10 ildə neft sektorundakı hasılatı və təbii qaz satışından əldə ediləcək gəlirləri, eləcə də qeyri-neft sektorunun perspektiv potensialı nəzərə alaraq 30-ci illər üçün təxmini proqnoz hazırlamaq mümkündür.

Bütün hallarda növbəti illərdə iqtisadiyyatın diversifikasiyası sürətlənərsə, yəni qeyri-neft sektoru inkişafı davam edərsə, ciddi problemlər yaranmayacaq. 2030-cu illərdə neftin hasilatının xeyli azalması fonunda gəlirlərin qeyri-neft sektoru hesabına kompensasiya edilməsi nəticəsində Azərbaycanda iqtisadi inkişaf fərqli müstəvidə davam edə bilər.

2030-cu ildə vəziyyətin necə olacağını qarşıdakı illərdə iqtisadiyyatın şaxələndirilməsi prosesinin necə aparılacağı müəyyən edəcək. 2030-cu ildə Azərbaycan iqtisadiyyatının indikindən azı 2 dəfə böyük olacağını ehtimal etmək olar, təbii ki, bu, qeyri-neft sektorunun inkişafı hesabına mümkün ola bilər. Kiçik və orta sahibkarlığa dövlət dəstəyi gücləndirilsə, ölkədə ÜDM-in və dolayı yolla dövlət büdcəsinin gəlirləri daha çox artacaq. Buna müvafiq olaraq idxaldan asılılaq azalacaq, ixrac çoxalacaq.

İqtisadçıların ümumi fikrinə görə, qeyri-neft sektorunun inkişafı prosesində klaster yanaşmada əsas perspektivli sahələr yüngül sənaye, xüsusilə qida sənayesi, aqrar sektordur. Ölkələrin təbii sərvətlərinin mövcudluğu əsas deyil, əsas innovativ yanaşma, texnoloji yüklü iqtisadiyyat yaratmaqdır. İnnovativ dəyər yaradan sektorlar dəstəklənməlidir. Ölkəmizin beynəlxalq nəqliyyat qovşağına çevrilməsi, turizm imkanlarının genişlənməsi də iqtisadi inkişafa töhfə verəcək.

Ümumiyyətlə, hökumətin sosial-iqtisadi inkişaf konsepsiyasına görə, yeni mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır.

***Elçin Bayramlı***

ANALİZ

# Namizəd Səfərov Əli Kərimlinin planlarını pozdu

***Dağıdıcı müxalifətin fəal təmsilçilərindən olan AXCP sədri Əli Kərimli, "Milli Şura"nın sədri Cəmil Həsənli, Şura üzvü Gültəkin Hacıbəyli və digərləri fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı yanlış və əsassız təxribatçı informasiyalar yaymaqda davam edirlər. Bu da təbii ki, göstərişsiz deyil. Yəni, əlbaəxım funksiyasını yerinə yetirən dağıdıcı ünsürlər xarici maraqlı dairələrdən aldıqları göstərişlərə uyğun olaraq seçkilərlə bağlı təxribat xarakterli açıqlamalar verir, videolar paylaşırlar.***







Lakin onların çirkin və məkrli planları nəticə verməyəcək. Çünki cəmiyyət onların yaydıqları böhtanları qətiyyətlə rədd etdiyindən fəaliyyətləri özlərinə qarşı çevrilmiş olacaq. Ümumiyyətlə, görünən ondan ibarətdir ki, dağıdıcı müxalifət istər 44 günlük Vətən savaşında, istərsə də üçrəngli bayrağımızın Xankəndidə ucaldılmasından sonra, eləcə də 7 fevral növbədənkənar prezident seçkiləri ərəfəsində geniş və əhatəli şəkildə cəmiyyətdə çaşqınlıq yaratmağa hesablanan fəaliyyət yolu tutublar. Bu da onu deməyə əsas verir ki, Ə.Kərimli, C.Həsənli, A.Hacılı və digərləri xarici maraqlı dairələrin göstərişlərini yerinə yetirmək üçün xüsusi göstərişlər alıblar.

Əli Kərimli və Cəmil Həsənli xalqdan üzr istəyərək siyasətdən getməli idilər

Ermənistanın diz çöküb, təslim olmasından sonra AXCP sədri Ə.Kərimli demək olar ki, hər gün təxribat xarakterli açıqlamalar yayımlayırdı. Gah deyirdi ki, sərhəd keçid məntəqəsi yaradılmayacaq, gah da iddia edirdi ki, Laçına gedərkən rus sülhməramlılarından icazə almalı olacağıq. Başqa bir sayıqlamasında isə Ə.Kərimli bildirirdi ki, Xankəndi, Xocalı, Ağdərə və digər ərazilərimizə getmək mümkün olmayacaq. Lakin bu bayquş bir daha yanıldı. Azərbaycan həm Laçın sərhəd keçid məntəqəsi yaratdı, həm də Laçına sərbəst olaraq gediş gəlişi təmin etdi. 2023-cü il oktyabrın 15-də isə Müzəffər Ali Baş Komandan, Yenilməz Sərkərdə, Prezident İlham Əliyev Xankəndidə, Xocalıda, Əsgəranda, Ağdərədə, Xocavənddə və digər ərazilərimizdə üçrəngli bayrağımızı ucaltdı. 2023-cü il noyabrın 8-də Xankəndidə xalqımız üçün qürurverici anlar yaşandı, ölkə Prezidenti, Fateh Sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuzun hərbi paradı keçirildi. Bununla da bütün suallar cavablandırıldı və nəyi, necə və nə zaman etməyi yalnız O bildiyini nümayiş etdirdi. Bundan sonra dağıdıcı müxalif partiya funksionerləri susmalı və xalqdan üzr istəyərək siyasətdən getməli idilər. Lakin onlar siyasətə gəlir mənbəyi kimi baxdıqlarından gözlənilən siyasi mədəniyyəti nümayiş etdirmədilər. Əksinə, daha həyasız formada mənasız iddialarla və lüzumsuz açıqlamalarla çıxışlar edirlər.

### Dağıdıcı müxalifətin təxribatı iflasa uğradı

Dağıdıcı müxalifət başbilənlərinin 7 fevral növbədənkənar prezident seçkiləri ilə bağlı cəfəng yalanlar söyləyib, təxribat xarakterli mövqe sərgiləmələri məhz xarici ağalarının tapşırıqlarından irəli gəlir. Əgər belə olmasa idi seçkilərə qatıla və ya seçkilərdə namizəliyini irəli sürən hansısa şəxsi dəstəklədikləri ylan edərdilər. Lakin ağılsızlıqları və bu azmış kimi xarici maraqlı dairələrdən asılı olmaları onlara ümumxalq tədbirdə iştirak etməyə imkan vermədi. Reallığı isə etiraf etməyə nə gücləri, nə də cəsarətləri çatmır. Lakin əqidə dostları arasında proseslərə uyğun addım atmağın vacibliyini dərk edənlər var. Onlardan biri də hansı əxlaqın və mənəviyyatın sahibi olduğu bəlli olmayan, Milli Şuranın keçmiş üzvü, özünü "hüquq müdafiəçisi" kimi təqdim etməyə çalışan Namizəd Səfərovdur. Bu məxluq Əli Kərimlinin, Cəmil Həsənlinin və digərlərinin Qərb dəyərlərinə münasibətdə Azərbaycanın milli-mənəvi dəyərlərinə hörmətsiz yanaşmalarına etiraz olaraq Milli Şuradan istefa versə də, vaxtaşırı qurumun toplantılarında iştirak edir, C.Həsənli ilə müəyyən məsələlərlə bağlı məsləhətləşmələr aparır. Namizədliyini irəli sürməsi də öz ağlının və istəyinin məhsulu olmadığı şübhəsizdir.

### Cəmil Həsənlinin Namizəd Səfərov üzərində təsiri ola bilər

Əminliklə qeyd etmək olar ki, dağıdıcı müxalifət düşərgəsində belə qəbul edilməyən N.Səfərovun gözlənilmədən seçkidə namizədliyini irəli sürməsində C.Həsənlinin rolu və dəstəyi mövcuddur. Düzdür, bu məsələdə 2019-cu ilin noyabrında xaricdəki təxribatçıların iştirakı ilə yaradılan və N.Səfərovun da qoşulduğu blok üzvlərinin göstərişləri ehtimal olunur. Lakin əsas təsirin C.Həsənlidən gəldiyi şübhəsizdir. Çünki xaricdəki təxribatçı qrup Azərbaycan cəmiyyətində özlərinə böyük nifrət qazandıqlarından N.Səfərov üzərində ciddi təsirləri ola biləcəyi inandırıcı deyil. C.Həsənli isə qismən də olsa, xaricdəki erməni kökənli hesab olunan qruplardan fərqlənir. Ən azı C.Həsənli canlı efirlər qurub qadın, uşaq söyüşləri söymür, gecənin yarısı insanlara zəng edib onları təhqir etmir. C.Həsənlinin işi xaricdən verilən müəyyən siyasi tapşırıqları yerinə yetirməklə meydanda görünməyə çalışmaqdır ki, bunu da məharətlə yerinə yetirir. Bu baxımdan, N.Səfərovun xaricdəki söyüş qruplarının istəyi ilə deyil, C.Həsənlinin maraqlarına uyğun namizədliyini irəli sürdüyü ehtimal olunur. Sual yarana bilər, C.Həsənlinin marağı nədir? Birincisi, C.Həsənli dostu, Milli Şuranın keçmiş üzvü N.Səfərovu seçki marafonuna buraxmaqla xaricdən yeni qrant almağa ümid edir. İkincisi, N.Səfərov vasitəsi ilə seçkiyə qatılmaqla üzərinə olan təzyiq və təhdidlərdən yayınmağa çalışır. Üçüncüsü, nümayiş etdirməyə çalışır ki, seçkiləri boykot qərarı Ə.Kərimlinin istəyidir, onun bu məsələdə heç bir rolu yoxdur. Buradan da belə anlaşılır ki, əslində, C.Həsənli Ə.Kərimlinin seçkiləri boykot qərarını dəstəkləmir. Sadəcə, niyyətini cəsarətli şəkildə ortaya qoymaqdan çəkinir. Qorxur ki, Ə.Kərimli haqqında rüsvayedici siyasi bilgiləri dövriyyəyə buraxmaqla onu siyasətdən uzaqlaşdırar. Ona görə də susur və gizli dəstək hesabına N.Səfərovu meydana buraxmaqla çoxdan qurduğu planlarını reallaşdırmağa çalışır. Lakin C.Həsənli N.Səfərov kimi kifayət qədər zəif və təcrübəsiz birisi vasitəsi ilə nəzərdə tutduğu planlarını həyata keçirəcəyi inandırıcı deyil. Digər tərəfdən, N.Səfərovun 40 min imzanı toplaya biləcəyi şübhəli görünür. Ona görə də, hələ bilmək olmaz N.Səfərov C.Həsənlinin, eləcə də digər maraqlı tərəflərin planlarının gerçəkləşməsində vasitə olacaq, ya yox. Təbii ki, bunu zaman göstərəcək. O zaman isə heç də uzaqda deyil. Yaxın vaxtlarda hər şeyə aydınlıq gətiriləcək. Hələlik isə onu demək olar ki, N.Səfərov namizədliyini irəli sürməklə C.Həsənlinin maraqlarının təminatçısı olsa da, Ə.Kərimlinin belini qırdı.

**İLHAM ƏLİYEV**

ANALİZ



# "İçməli su ehtiyatlarından istifadə Azərbaycan üçün ciddi problemdir"

***"İçməli suyun israfının qarşısını almaq, insanları bu mövzuda tərbiyələndirmək olduqca aktual məsələdir". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Ağasəlim Həsənov deyib. Onun sözlərinə görə, bu, bir region, coğrafiya üçün deyil, bütün dünya üçün aktualdır: "Səbəb isə dünyada içməli su ehtiyatının azlığı və getdikcə də azalmasıdır. Qlobal istiləşmə fonunda ən ciddi fəsadlardan biri su ehtiyatlarının, özəlliklə içməli su ehtiyatının azalmasıdır. Buna görə bütün ölkələr bu istiqamətdə tədbirlər proqramı ortaya qoymalıdır".***









Sosioloq deyib ki, ölkəmizdə də dövlət səviyyəsində su israfının aradan qaldırılmasına yönəlmiş qaydalar vardır: "Düşünürəm ki, bunu daha da optimallaşdırmaq üçün addımlar atılmalıdır. Üç Cənubi Qafqaz ölkəsinin ərazi və əhali sayına görə ən böyük ölkəsi Azərbaycandır. Təəssüf ki, Cənubi Qafqazın içməli, ümumi su ehtiyatının ən az faizi Azərbaycanın payına düşür. Bu da ölkəmiz üçün ciddi siqnaldır, əhali sayı artmaqdadır və içməli su resurslarımız o qədər də yetərli deyil. Müsbət məqam odur ki, 30 il sonra Qarabağı işğaldan azad etdik. Azərbaycanın içməli su ehtiyatlarının önəmli hissəsi Qarabağ bölgəsində və Şərqi Zəngəzurdadır. Həmin resurslardan istifadə etmək imkanı var, gələcəkdə bu layihələr reallaşa bilər. Qalan problem kimi əhalinin içməli sudan istifadə qaydalarına riayət etməsi, israfın aradan qaldırılmasına yönəlmiş tədbirlərin görülməsidir. Vətəndaşlarımız içməli sudan səmərəli şəkildə necə istifadə edə bilirlər? Bu çox ciddi problemdir. Kifayət qədər israfçılıq var. Ümumiyyətlə, insan heç nəyi israf etməməlidir. Ciddi mübarizə aparıb vətəndaşlarımızı bu istiqamətdə məlumatlandırmalıyıq. İnsanlar su probleminin nə qədər ciddi olduğunun fərqində olmalı, könüllü şəkildə ekoloji şüur baxımından məsələyə yanaşmalıdırlar. Bunları çatdırmaq üçün sosial ekoloji maarifləndirmə tədbirlərinə ciddi ehtiyac görürəm".

A.Həsənov əlavə edib: "Azərbaycanda ekoloji mədəniyyətin səviyyəsi yetərli deyil. Həm içməli sudan istifadə, həm də davranış məsələsində son 30 illik tarixdə baş verənlər göstərdi ki, ekoloji şüur və mədəniyyət səviyyəsi Azərbaycan cəmiyyətində aşağıdır. Sosioloq olaraq müşahidələrimə əsasən və aparılan sosioloji tədqiqatların da nəticəsində bu nəticəyə gəlmişəm. Məsələn, Bakı şəhərinin, ətraf mühitin çirklənməsi insan faktoru ilə bağlıdır. Ekoloji şüur və mədəniyyət çox ciddi məsələdir. Çünki insanların ətraf mühitlə davranışı, münasibəti, təbii resurslardan, içməli su ehtiyatlarından nə dərəcədə istifadə məsələsi Azərbaycan cəmiyyəti üçün ciddi problemdir. Cəmiyyəti israfçı adlandıra bilərik. Reallıqda dövlət tərəfindən verilən içməli suyun haqqı vətəndaş tərəfindən ödənilir. Buna baxmayaraq vətəndaşlar israf etməkdən çəkinmirlər. Dövlət inzibati metod kimi içməli suyun qiymət artımını edə bilər. Paralel olaraq qaydalar sərtləşə bilər. Cərimələri qarşılamağa, suyun qiyməti baha olarsa, onu ödəməyə maddi imkanlar yetərli deyil. Azərbaycandakı minimum əmək haqqı, bu kimi amillər hələlik ciddi qiymət artımına getməyi mümkün etmir. Olarsa, cüzi artım ola bilər. Kəskin qiymət artımı da cəmiyyətdə narazılıqlara səbəb ola bilər. Dövlətin də indiki şəraitdə bunu edəcəyini təxmin etmirəm".

**Söylü Ağazadə**

AYDINLIQ GƏTİRİLDİ



# İrəvanın tarixi irsi

***Regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin "tarixi əzəli torpaqları"nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər.***





Tarixdən bəllidir ki, İran və Rusiya arasında "Gülüstan", "Türkmənçay", Rusiya və Türkiyə arasında "Andrianopol" müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib. Torpaqları zəbt olunan azərbaycanlılar isə süni şəkildə qaçqın və məcburi köçkün vəziyyətinə salınıblar.

1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəlir. Vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq ideyası ortaya atılır. Həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur olurlar. Ermənipərəst qüvvələrin və millətçilərin yürütdükləri məkrli siyasət nəticəsində 1923-cü ildə Azərbaycanın az sayda ermənilərin yaşadığı ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır. Bundan sonra azərbaycanlıların öz doğma ocaqlarından zorla qovulması və



onlara qarşı etnik təmizləmə siyasətinin yeni mərhələsi başlanır. Nəticədə XX əsrin müxtəlif dövrlərində iki milyona yaxın soydaşımız öz tarixi torpaqlarından qovulur, etnik təmizləmə siyasətinin qurbanına çevrilərək didərgin salınırlar.

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi.

Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunmuşdu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

Tarixi proseslərin davamı olaraq iyirminci əsrin sonunda 1988-ci ildən başlayaraq Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Zəngəzurda, Göycədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. " Kütləvi terrora məruz qalan azərbaycanlıların son nümayəndələri məcburiyyət qarşısında qalıb Zəngəzuru tərk edəndən sonra, burada onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv

Tarixi Azərbaycan ərazisində çoxsaylı qalalar, qala-şəhərlər, hərbi istehkam obyektləri mövcud olmuşdur. Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır. Mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilir ki, Zəngəzur türklərin qədim yurd yeri olub. Zəngəzurdakı türk mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. Xalqımıza qarşı həyata keçirilən tarixi ədalətsizlik öz qiymətini alacaq. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, Azərbaycanın əzəli torpağı olan Zəngəzurun Azərbaycandan ayırıb Ermənistana verilməsi böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır, - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev Zəngəzurun tarixi dövrdəki əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu bildirib. Təbii ki, mənbələrdə göstərildiyi kimi, Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları olub. Tarixi ədalətsizliyin sağalmayan yara olduğunu qeyd edən Cənab İlham Əliyev "vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq"- deyə əminliyini ifadə edib. Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində indi Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etməyi haqqıdır.



Bu gün əzəli torpağımız olan İrəvanda tarixi mədəniyyət abidələrimiz dağıdılıb, məhv edilibdi. Belə ki, indi Ermənistan Respublikası adlanan tarixi Azərbaycan ərazisində çoxsaylı qalalar, qala-şəhərlər, hərbi istehkam obyektləri mövcud olmuşdur. Orta əsrlər dövrünə və Rusiya işğalı dövrünə aid ədəbiyyatlarda indiki Ermənistan ərazisində mövcud olmuş və hərbi istehkam xarakteri daşıyan İrəvan qalası, Keçi qalası, Sərdarabad qalası, Talın qalası, Gümrü qalası, Şörəyel qalası haqqında məlumatlar verilir. Oradakı Dəmir Bulaq məscidi yerlə yeksan edilib, Göy məscidin isə orijinal görünüşünü dəyişdirilmək məqsədilə yenidən təmir olunub. Rəcəb Paşa məscidi, Hacı Cəfər bəy məscidi, Novruzəli bəy məscidi tamamən dağıdılmışdır. Sərdar məscidi (1510–1918-ci illər) Sovet Ermənistanı dövründə hissə-hissə sökülərək onun yerində yaşayış evləri tikilib. İrəvanın mərkəzindəki Sərdar məscidi də sistematik olaraq dağıdılıb və 2014-cü ildə yerə yeksan edilib.

Qeyd edək ki, 1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Came, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

Bu və ya digər tarixi abidələrimiz sırasında ən möhtəşəm olanı və tədqiqatlarda indi də tez-tez adı çəkilən qala İrəvan qalasıdır. Tarixi mənbələrdə göstərilir ki, İrəvan qalası haqqında ilkin yazılı məlumat Səfəvilər dövrünə aiddir. İstər Səfəvilərin, istər Nadir şahın, istər Qacarların, istərsə də Osmanlıların hakimiyyəti dövründə İrəvan hakimlərinin, bəylərbəylərinin və xanlarının iqamətgahı İrəvan qalasında olmuşdur.

İrəvan qalasının ruslar tərəfindən işğalından sonra qala dövlət mülkiyyəti elan edilmişdi. XIX əsrin 30-cu illərində İrəvan qalasındakı 120-dən artıq binada müxtəlif təyinatlı dövlət müəssisələri və təşkilatlar yerləşirdi.

Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 1924-cü ildə şəhərin baş planı təsdiq edilmişdir. Baş planın başlıca məqsədi azərbaycanlılara məxsus olan tarixi-memarlıq abidələrini yer üzündən silməkdən ibarət olmuşdur. 1936-cı ildə İrəvanın yeni baş planı hazırlanmışdır və onun həyata keçirilməsi nəticəsində qalanın içərisində müasir tipli hündürmərtəbəli binalar inşa edilmişdir.

İrəvan qalasının həmyaşıdları – Bakıda İçərişəhərin qala divarları, onun içərisindəki Şirvanşahlar sarayı, Şəkidə Xan sarayını əhatə edən qala divarları bu gün də yaşayır və keçmişdən bu günə soraq verirlər. Mənbələrdə qeyd olunur ki, hazırda İrəvan şəhər tarix muzeyində müasir erməni



memarları tərəfindən hazırlanmış İrəvan qalasının maketi nümayiş etdirilir. Maketdən görünür ki, həm də qalada mövcud olmuş bütün tikililər orada öz əksini tapmamışdır. Həmçinin həmin muzeydə qalanın ruslar tərəfindən işğalından sonra ələ keçirildiyi iddia edilən "İrəvan qalasının açarı" da nümayiş olunur.

Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Xatırladaq ki, 1968-ci ildə ermənilər Urud kəndinin adını dəyişərək Vorotan, Urud qalasının adını isə Vorotanberd qoymuşlar. Urud kəndində 1988-ci ilə kimi yalnız Azərbaycan türkləri yaşamışlar. Bu kənddə ermənilərin ilk məskunlaşması 1988-ci ildən sonra olmuşdur.

Onu da qeyd edək ki, abidələr kompleksinin ən mühüm hissəsi isə Urud kəndi yaxınlığındakı orta əsrlər Azərbaycan məzarlığıdır. Məzarlıqda bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, Urud qalasının yalnız xarabalıqları qalır.

Əlbəttə ki, göründüyü kimi, İrəvan şəhərində tarixi-memarlıq abidələrinə, dini ocaqlarımıza olan təcavüz xalqımızın tarixi keçmişini yer üzündən silmək məqsədi daşıyıb.

***Nəzakət ƏLƏDDİNQIZI***





# Qarabağ və Şərqi Zəngəzur: böyük tikinti-quruculuq meydanı

## Prezident İlham Əliyev: "İl ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar"

***Dünyada Avropadan Asiyaya qədər olan məkanlarda böyük nüfuza sahib olan Azərbaycan 44 günlük Vətən müharibəsində qısa bir zamanda uğurlu əməliyyatlar nəticəsində düşmən tapdağı altında olan torpaqlarımızı işğaldan azad edərək bir daha dünyaya gücünü göstərmiş oldu. Azərbaycan tarixi ədaləti bərpa etdi və ölkəmizin suverenliyi təmin olundu. "2023-cü il arxada qalır.***

2023-cü ildə ölkəmizin həyatında bir çox önəmli hadisələr baş vermişdir. Ancaq o hadisələrin arasında dövlət suverenliyimizin bərpası Azərbaycan xalqının yaddaşında əbədi qalacaqdır. 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam bərpa etmişdir, işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması təmin edilmişdir, düşmən ordusu məhv edilmiş, düşmənin hərbi texnikası məhv edilmiş və ya qənimət kimi götürülmüşdür". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bildirib.

Azərbaycanın siyasi arenada, döyüş meydanında misilsiz uğura imza ataraq tarixi ədaləti bərpa etməsi tariximizə Zəfər günün yazdırdı. Ciyasi gücə, iradəyə malik Böyük Lider, Azərbaycan Prezidenti İlham Əliyevin Sərkərdəlik məharəti xalqımızı Müzəffər, Qalib xalq kimi dünyaya tanıtdı və Zəfər qazanmış xalq olaraq dünya hərb tarixinə yeni bir səhifə açdıq. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. 2020-ci ilin noyabrın 8-də Şəhidlər Xiyabanını ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin Şuşa şəhərini işğaldan azad etdiyini elan edərək: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! ... Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq... Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", - deməsi əbədi sevinc hissini bizlərə yaşatmış oldu. Artıq Azərbaycanın işğalda olan torpaqları azaddır və Qarabağ Azərbaycandır! 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı və bu mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası idi. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi.

### "SEPARATİZM - BU BƏLA BİZİM TORPAĞIMIZDA BİR DAHA BAŞ QALDIRA BİLMƏZ"

"2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi. Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq" - deyə dövlət başçımız qeyd edib. Üç il ərzində Ermənistanın öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini bildirən Cənab Prezident bizə qarşı yeni hərbi təxribatlar hazırlayaraq, onları həyata keçirdiyini vurğulayıb: "Təbii ki, biz bu vəziyyətlə barışa bilməzdik. Dəfələrlə Ermənistan rəhbərliyinə və onun arxasında dayanmış Qərb ölkələrinə xəbərdarlıq etmişdik ki, bu vəziyyət davam edə bilməz. Ya separatçı rejim özünü buraxmalıdır, Ermənistan ordusu bizim ərazimizdən çıxarılmalıdır, ya da ki, biz güc tətbiq edərək dövlət suverenliyimizi özümüz bərpa edəcəyik. Əfsuslar olsun ki, bizim sözümüzə diqqət yetirilmədi. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz".

Azərbaycan tərəfi qanunsuz erməni qüvvələrinin mövcudluğuna son qoymaq və bütün ərazilərində tam suverenliyi bərpa etmək məqsədilə, Qarabağ bölgəsində 24 saat ərzində antiterror tədbirləri həyata keçirdi. Azərbaycan Ordusunun Qarabağda başlatdığı cari ilin 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı. Təbii ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir.

### "5 MİNƏ YAXIN KEÇMİŞ KÖÇKÜN ÖZ DOĞMA TORPAQLARINA QAYITMIŞDIR"

2023-cü il tariximizdə Böyük Qayıdışın sürətli inkişaf mərhələsi kimi qaldı. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir. Bu ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilir. İşğaldan azad olunmuş ərazilərimizin hər biri, məhz Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Ağalı kimi müasir məkana çevrilir və buranın əzəli sakinləri rahat, təhlükəsiz bir şəraitdə bu yerlərdə əbədi olaraq yaşayacaqlar.

Ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan verir. Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoyub. Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapır. Məlumdur ki, birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi. 2022-ci ildə Ağalıya köç başladı. Bu gün Ağalı kəndi dünyanın ən müasir kəndlərindən birinə çevrilib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Daha sonra isə digər ərzizilərimizə qayıdış oldu. Bir çox kəndlərdə artıq inşaat işlərinə başlanılıb. Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda çoxmərtəbəli evlərin tikintisinə də başlanılıb. "Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. Biz şəhərlərimizi, kəndlərimizi yenidən qururuq və artıq bu il 5 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır. Bu ilin mart ayında - Novruz bayramı ərəfəsində Talış kəndində bayram sevinci yaşandı, köçkünlər öz doğma evlərinə qayıtmışdılar. Avqust ayında Füzuli şəhəri və Zabux kəndi bayram içində idi. Bu il Laçın şəhərinə Müstəqillik Gününü qeyd edərkən köçkünlər qayıtmışdır - 28 May tarixində Laçında böyük bayram günü idi. Ondan əvvəl, bildiyiniz kimi, Ağalı kəndində köçkünlər məskunlaşmış və beləliklə, beş yaşayış məntəqəsində indi həyat bərpa edilib" – deyə Prezident bildirib.

### "2024-CÜ İLDƏ BİR NEÇƏ YAŞAYIŞ MƏNTƏQƏSİNƏ KEÇMİŞ KÖÇKÜNLƏR, QAÇQINLAR QAYIDACAQLAR"




Cənab Prezident onu da diqqətə çatdırıb ki, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar: "Bu müjdəni mən bu gün onlara vermək istəyirəm və bildirmək istəyirəm ki, il ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar. Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq".

Güclü iqtisadi inkişafa sahib olan Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2.2 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb. Laçında, Füzulidə və digər ərazilərdə görülən işlər, Füzuli Beynəlxalq Hava Limanın cəmi səkkiz ay ərzində tikilib istifadəyə verilməsi, Zəngilan Beynəlxalq Hava Limanını açılışı və s. işlərin uğurla davam etdiyini göstərir. 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanını istifadəyə verilməsi nəzərdə tutulur. Bərdə-Ağdam dəmir yolu isə cari ildə istifadəyə veriləcək. Xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. 10-dan çox kəndin Baş planı təsdiqlənib və bir neçə kəndin təməli Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Görülən işlər Baş planlar əsasında həyata keçirilir.

***Zümrüd BAYRAMOVA***

# 2024-cü ilin gəlinlik dəbi NECƏ OLACAQ?

*Gəlinlik seçimi toy planlaşdırmasının ən maraqlı mərhələlərindən biridir. Fərqli parçalardan istifadə edilərək istehsal edilən gəlinliklər zəriflik və estetika gətirir. Təbii ki, gəlinliklərin hazırlanmasında istifadə olunan parçalar sizin şəxsi seçimlərinizlə müəyyən edilir. Mütəxəssislər tərəfindən hazırlanmış gəlinlik modelləri hər il dəyişən dəb anlayışına uyğun formalaşdırılır.*













ARAŞDIRMA

2024 gəlini olacaqsınızsa, yeni ilin gəlinlik modasına diqqət yetirməlisiniz. Çünki gəlinlik sferasının aparıcı brendləri Nyu Yorkda ən son kolleksiyalarını təqdim ediblər.

SİA 2024-cü ilin gəlinlik modası ilə bağlı araşdırma aparıb.

Bu gün bir çox gəlinlər bir toyda iki gəlinlik seçimi edir. Bu səbəbdən dizaynerlər də gəlinlərə bir çox seçimlər verən kolleksiyalar yaratmağın yollarını tapırlar. Nazlı və qabarıq mini gəlinliklərə əlavə olaraq, bu il çoxlu romantik yaylı xətlər və parlaq bəzəklər diqqəti cəlb edəcək. Toylarının yalnız bir hissəsində dramatik forma istəyənlər üçün həcmli, ağır və parlaq gəlinliklər dəbdədir. Lakin asanlıqla çıxarıla bilən siluetlər ön plandadır.

## Qısa gəlinliklər

Gəlinliklərdə qısa ətəklər, sözün əsl mənasında, artmaqdadır. Uzun qollu və mirvari boyunbağı ilə olan qısa modellərdən əlavə, yazda boş, sadə mini gəlinliklər də diqqət çəkəcək.

## Bantlar

2024 Yaz/Yay kolleksiyalarında bantlar üstünlük təşkil edir. Dəbli gəlinlik kateqoriyasına daxil olan dizaynlar podiumlarda şişirdilmiş, dramatik görüntülər nümayiş etdirir. Normalda aksessuar kimi istifadə edilən bant indi bir çox gəlinliklərin ayrılmaz hissəsinə çevrilib. Gələn il bir çox gəlinlərin bu motivin şirinliyini qəbul edəcəyi gözlənilir.

## Şəffaf (transparan) xətlər

Bütün dostlarınızın və ailənizin qarşısında bu libasla gəzmək yəqin ki, cəsarətli bir hərəkətdir. Dizə qədər çəkmələr və dirsəyə qədər əlcəklərlə transparan gəlinliyi bəzəyə bilərsiniz.

## Sürünən və sürünməyən libas ətəyi

Gəlinliklərdə həmişə yer süpürən (sürünən) paltarların ağır olduğunu təxmin edə bilərsiniz. Ancaq bu dəfə hündür və alçaq siluetlər dizaynlara fərqlilik qatır. 2000-ci illərin əvvəllərində gözə çarpan stil, bu mövsüm böyük bir şəkildə geri dönüb. İndi gəlinliklərdə zərif parçalar, dalğalı siluetlər və romantik detalların qarışığı yer alır.

## Çiçək detalları

Çiçək naxışları baharın simvoludur. Lakin demək olar ki, hər kolleksiyada yeni üsullarla görünür. 3D naxışlı çiçəklər bu il çox dəbdədir.

Builki gəlinlik modelləri ümumiyyətlə aşağı çiyinli və uzun ətəkli modellərdən ibarətdir. Bu modellər üçün aksesuar seçərkən mükəmməl uyğunlaşacaq ağ qızıl boyunbağı modellərini nəzərdən keçirməyi unutmayın.

Təbii ki, bu modellər də şəxsi zövq və üstünlüklərə uyğun formalaşdırıla bilər. Bu səbəbdən gəlinlik seçimindən əvvəl lazımi araşdırmaların düzgün aparılması sizi ən yaxşı nəticəyə aparacaq.

**Bu modelə əlavə olaraq 2024-cü il üçün təyin olunan gəlinlik trendləri də belə açıqlanıb:**

- Küräyiaçıq gəlinlik modelləri siyahının başındadır.
- Ənənə ilə müasirliyi eyni parçada birləşdirən gəlinlik modelləri zamansız dizaynlar arasındadır.
- Tək çiyinli gəlinliklər dəbdə olan modellər arasındadır. Bu modeli qızılı trend sırğalarla birləşdirə bilərsiniz.
- Asimmetrik kəsikli gəlinlik modelləri.
- Yüngül parça və ya daşlarla bəzədilmiş gəlinlik modelləri.
- Digər aksesuarlarla (tac, duvaq, əlcək və s.) inteqrasiya olunmuş gəlinlik modelləri.

## Gəlinlik seçərkən nələrə diqqət etməli?

2024 gəlinlik modellərini seçərkən diqqət etməli olduğunuz ilk detal, sahib olmaq istədiyiniz gəlinlik modelinin tam olaraq xəyallarınızdakı kimi olmasıdır. Bundan əlavə, öz sahəsində mütəxəssis olan bir firma ilə geyinmək istədiyiniz gəlinlik modeli üçün lazımi hazırlıqları etməlisiniz.

Gəlinlər həyatlarının ən xoşbəxt günündə bu xüsusi geyimlə unudulmaz xatirələr yaşayırlar. Odur ki, gəlinlik seçimi hər bir gəlinə özünü yaxşı hiss etdirən və toya hazırlıqların ən xüsusi anlarından birini təmsil edən bir təcrübədir.

**Ayşən Vəli**















# Xərçəng və biz: Kimlər gəldi, kimlər keçdi...



***Ölüm qorxusu bütün canlıların ehtiyat etdiyi hissdir. Hamımız xəstələnməkdən, xüsusilə xərçəng xəstəliyinə tutulmaqdan və ya ölməkdən qorxuruq. Ona görə də bəşəriyyət keçmişdən bu günə qədər ölməzlik arzusundadır. İnsan sağlam ikən xəstəlik faktorunu unudaraq yaşayır, lakin xəstəlik gələndə varlı, kasıb, savadlı-savadsız, uşaq-böyük ayrı-seçkiliyi etmir. Eynilə “Apple” yaradıcısı, milyarder Stiv Cobsu öz qurbanına çevirdiyi kimi. Bu günədək dünyada maddi imkanı kifayət qədər yaxşı olan minlərlə insan Cobs kimi xərçəngdən sığortalana bilməyib.***

## Xərçəng qurban seçmir- məşhuru da var, ulduzu da...

Bayram tətilinin son iki günü sosial şəbəkələrdə iki xəbər ayaq açıb yeridi. Birincisi, qarmon ifaçısı Gülbahar Şükürlü idi. 62 yaşlı əməkdar artist uzun müddətdir xərçəng xəstəliyindən əziyyət çəkirdi. Bayram tətilinin son günü isə məşhur müğənni, əməkdar artist Aygün Bəylərin ölüm xəbəri yayıldı. Dekabr ayında canlı konsert verən müğənninin vəziyyəti qəflətən pisləşib və o Türkiyədə müalicəyə yollanıb. 3 ildir döş xərçəngindən əziyyət çəkən Aygün Bəylər elə Türkiyədə, xəstəxanada vəfat etdi.

Ölkəmizdə bir çox tanınmış şəxs xərçəngin qurbanı olub. Keçmiş Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) ilk sədri Vurğun Əyyub 62 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişib. Xalq artisti Fuad Poladov da xərçəng xəstəliyinin qurbanı olub. Tanınmış aktyor 2018-ci ildə 69 yaşında vəfat edib. Uzun illər onkoloji xəstəliklə mübarizə aparan Əməkdar artist Xanım Qafarova da xərçəngə yenildi. Tanınmış rejissor Şahin Zəkizadə 2017-ci ildə 39 yaşında ikən qan xərçəngindən həyatını itirib. Jurnalist Gülər Məmmədova 2015-ci ildə xərçəng xəstəliyinin qurbanı olub. Tanınmış jurnalist Nigar İsmayılqızı 34 yaşında qan xərçəngindən vəfat edib. Şahmat üzrə Azərbaycan milli komandasının sabiq üzvü, qrossmeyster Vüqar Həşimov 2014-cü ildə 27 yaşında beynində olan bədxassəli şişə təslim olub. Xalq şairi Vaqif Səmədoğlu mədə xərçəngindən əziyyət çəkib. O, 2015-ci ildə 75 yaşında həyatdan köçüb. Xərçəngin daha bir qurbanı tanınmış teleaparıcı Ceyran Nəriman olub.

Uzun müddət xərçəng xəstəliyindən əziyyət çəkən məşhur xanəndə, Xalq artisti Ağaxan Abdullayev 2016-cı ildə 66 yaşında vəfat edib. Azərbaycan Respublikasının sabiq Müdafiə Sənayesi naziri (2006–2018), ”Şöhrət” ordenli Yavər Camalov uzun müddət xərçəng xəstəliyindən əziyyət çəkib. Sabiq nazir 2018-ci ildə 68 yaşında vəfat edib. Müğənni Xatun Əliyevanın qardaşı, stilist Balaş Əliyev isə 2021-ci ildə 38 yaşında beyin xərçəngindən ölüb. Xərçəng xəstəliyi əməkdar artist, aktyor Novruz Qartalın (74 yaş) da həyatına son qoyub. Uzun illər xərçənglə mübarizə aparan, tanımış aktrisa və aparıcı, ”Toppuş” bacı” ləqəbli Əməkdar artist Tünzalə Əliyeva da 49 yaşında xəstəliyə təslim oldu.

## Xərçəng qadınları sevir

Xərçəng çoxalan hüceyrələr xəstəliyidir, bir orqanda nə qədər sürətli və çox böyümə varsa xərçəng riski də bir o qədər yüksəkdir. Normal halda hüceyrələr orqanda yenilənmə məqsədi ilə çoxalmalıdır. Amma hər hüceyrənin də bir ömrü var, ölən hüceyrənin yerinə yenisi yaranır. Bəzən bu hüceyrələr orqanizmin nəzarətindən çıxır və sürətli şəkildə çoxalır. Bu çoxalma o qədər sürətlidir ki, ölən hüceyrələr bu sürətə yetişə bilmir və beləliklə, xərçəngin təməli qoyulur.



Orqanizm bir çox hallarda bu hüceyrələri nəzarəti altına ala bilmir, amma mümkün qədər nizamlamağa çalışır. Əgər orqanizmimiz nizamı qorumağa çalışmasa bu gün dünyada xərçəngdən ölənlərin sayı fəlakət həddə çatardı. Xüsusilə süd vəzi xərçəngi dünyada yayılmış ən geniş xərçəng növüdür. Hər il dünyada 400.000 qadına bu diaqnoz qoyulur. Bu 29 saniyəyə bir qadının xərçəng xəstəsi olması deməkdir. Ümumilikdə hər 8 qadından birində xərçəngin bu növünə rast gəlinir. Dünyada 40 yaşdan aşağı qadınlarda bu xəstəliyə görə 1-ci yeri Türkiyə tutur. 40 yaşdan aşağı qadınlarda SVX diaqnozu saya görə dünyada birinci yerdədir.



Azərbaycanda hər 8 qadından biri süd vəzi xərçəngindən əziyyət çəkir və bu rəqəm ilbəil artmaqdadır. Üstəlik, bu xəstəlik artıq çox gəncləşib. Bir çox qadının mammoqrafiya etdirmədiyini nəzərə alsaq bu rəqəmin çox olduğunu ehtimal etmək olar. Endokrinoloq Sahib Məmmədov deyir ki, qadınlarda döş, uşaqlıq, yumurtalıq xərçənginə ona görə çox rast gəlinir ki, onların orqanizmi xərçəng üçün münbit zonadır: “Qadınlıq orqanları xərçəngin yaranması və inkişafı üçün olduqca əlverişli yerlərdir. Uşaqlığın iç təbəqəsi olan “endometrium” qadın bədəninin ən hərəkətli zonasıdır və 1 sm qalınlığındadır, elə buna görə burada xərçəng üçün münbit şərait yaranıb. Yumurtalıq xərçənginin yaranma səbəbi isə bu orqanda da hüceyrələrin hərəkətli olmasıdır”.

Həkim deyir ki, həm hüceyrə yenilənməsi, həm də yumurtalığın özünün tez-tez yenilənməsi səbəbindən bu orqanın xərçəngə yoluxması halları digər xərçəng növlərindən daha çox rastlanır. Heç vaxt uşaq doğmayan, və ya gec doğan, eləcə də tez-tez abort etdirən qadınlarda yumurtalıq xərçənginə çox rastlanır.

## Bakı xərçəng üçün münbit yerdir

2022-ci ilin statistikasına görə Azərbaycanda xərçəng xəstəsi kimi qeydiyyatda olan şəxslərin sayı 59 min nəfər olub. Məlumata görə, ölkəmizdə vəfat edən hər 9 nəfərdən təxminən 1-i xərçəngdən ölür. Ölümə səbəb olan xərçəngin növünə gəlincə, süd vəzisi 2638, traxeya, bronx, ağciyər 1379, mədə 1372, bağırsaq 701, qida borusu isə 486 təşkil edib.



Qeyd edək ki xərçəng xəstələri daha çox Bakıda yaşayır. Bunun da əsas səbəbi paytaxtda əhalinin sıxlığı və ekoloji durumun pis olmasıdır. Radiasiya faktoru da xərçəngin yayılmasında mühüm rol oynayır. Xüsusilə akasiya ağaclarının kütləvi qırılmasının xərçəng xəstəliyinin artamasına təkan verdiyi barədə tutarlı araşdırmalar var. Bu araşdırmalara görə bir akasiya ağacı 40 kvadratmetr ərazini radiasiyadan təmizləyir.

Qadınların süd vəzisi xərçənginə yoluxmasının səbəbinə gəlincə isə, bu süd vəzilərinin tez-tez hormon dəyilikliyinə uğraması ilə əlaqədardır. 40 yaşını keçən hər yüz qadından 2-si süd vəzisi xərçənginə yoluxur. Erkən diaqnozu qoyulan xəstəliyin sağalma şansı 95 faizdir. Yumurtalıq xərçəngi qadınlarda xərçəngdən ölmə səbəbi arasında 5-ci sıradadır. İlk sıralarda ağciyər, döş, bağırsaq və mədəaltı vəz (pankreas) xərçəngləri qərarlaşıb.



Maraqlıdır ki, tez-tez rastlanan xərçəng növləri daha az ölümə səbəb olduğu halda nadir rastlanan xərçənglər bir anda öldürə bilir. 40 yaşdan yuxarı qadınların ölümünün 2 faizinə yumurtalıq xərçəngi səbəb olur. Bu xərçəng növü ən çox 50-60 yaşlarda rastlanır və ən çətin diaqnoz qoyulan növdür. Xərçəng xəstəliyinin qadınlarda özünü göstərən növləri əsasən yumurtalıq, süd vəzisi və uşaqlıq boynu xərçəngidir. Erkən diaqnozun müalicədə böyük paya malik olduğunu bilmək önəmlidir.

## Erkən diaqnoz həyat sığortasıdır

Xərçəng xəstəliyi təhlükəlidir, nə elm, nə texnologiya onu kökündən məhv edə bilmir. İnkişaf etmiş mərhələsində bu xəstəlik üçün ediləcək çox az müalicə növü var. Amma erkən diaqnoz qoyulmuş xəstələrin sağalma ehtimalı yüksəkdir. Qadınların xərçəngə yoluxmasının qarşısını alacaq yeganə insan elə insanın özüdür. Xərçəngdən qorunmaq istəyən insanın ən effektiv silahı isə vaxtaşırı həkim müayinəsindən keçməkdir. Xərçəng başlanğıcda çox yavaş irəliləyən xəstəlikdir, bu səbəbdən də diaqnozu çətindir.

Xərçəngi yaradan faktorların başında stress gəlir, stressi həyatınızdan uzaq tutun. Natural qidaların, fast-food qidalanmadan uzaq durum. İdman edin, gəzintiyə çıxın, real sosial həyat yaşayın, dostlarla, qohumlarla sıx ünsiyyət qurun. Yeri gəlmişkən, doğuşdan sonra körpənizi əmzirən qadınlarda xərçəng nadir rastlanır.

Limon, naringi, nar xərçəngin düşmənidir, bol-bol istifadə edin. Göbələk xərçəng hüceyrələrini məhv edir. Yerkökü döş, uşaqlıq xərçəngi ilə mübarizədə güclüdür. Pomidor xərçəng hüceyrələrini azaldır. Ümumiyyətlə, bütün qırmızı meyvə və tərəvəzlər xərçəng xəstəliyi ilə mübarizə gücünə malikdir. Kələm, yaşıl çay, brokoli, gül kələmi, qatıq, ananası çox istifadə edin. Xərçənglə ona yoluxmamışdan öncə mübarizə aparın. Unutmayın, xərçəng qurbanını seçmir, onun üçün fərqi yoxdur - Stiv Cobs, ya da Əli Məmmədov...

***Lalə Mehralı***

# İrəvan: onları ərazimizdə görmək istəmirik



*Məhv edilmiş separatçı və qondarma rejimin saxta başçısı Şahramanyanın, sözün həqiqi mənasında, öz sözünü "yeməsi" və rejimin Ermənistanda fəaliyyətini davam etdirəcəyini iddia etməsi İrəvanda hiddətlə qarşılanmaqdadır. Artıq bir sıra rəsmi şəxslər açıq şəkildə bəyan edirlər ki, bu kimi iddia ölkəyə qarşı təxribat məqsədi daşıyır, həmçinin, Ermənistan üçün yeni təhlükələr yaradır.*

### Taron Çaxokyan: "Ermənistanda ikinci hökumət və ya ikinci dövlət ola bilməz"

"Rəsmi İrəvan Qarabağ "dövlət institutlarının" ölkədə mövcudluğunu mümkün hesab etmir". Bunu baş nazir Nikol Paşinyanın mətbuat katibi Taron Çaxokyan mediaya açıqlamasında deyib. "Bu, Ermənistanın təhlükəsizliyinə təhdid yaradır", deyə o fikirlərini də məhz bu cür açıq şəkildə ifadə edib. Çaxokyan deyib: "Ermənistanda ikinci hökumət və ya ikinci dövlət ola bilməz və separatçı qurumlar yalnız öz müqəddəratlarını düşünür, eləcə də Qarabağdan köçmüş insanların problemini həll etməyə qadir deyil".



### Lili Minasyan: "Hələ də baş aça bilmirəm ki, nəyə görə hakimiyyət orqanları müvafiq hüquq-mühafizə orqanlarına daha sərt tədbirlər görmək üçün ciddi tapşırıqlar vermir?"

Daha bir hakimiyyətə yaxın siyasətçi, deputat Lili Minasyan da separatçıları təxribatda ittiham edib və deyib ki, hüquq-mühafizə orqanları onlara qarşı sərt qanuni tədbirlər görməlidir. "Mən hələ də baş aça bilmirəm ki, nəyə görə hakimiyyət orqanları müvafiq hüquq-mühafizə orqanlarına daha sərt tədbirlər görmək üçün ciddi tapşırıqlar vermir?", - deyə Lili Minasyan sual edib.

### Artur Hovhanisyan: "Ermənistanı [Azərbaycanla] yeni hərbi provokasiyaya çəkmək planları məhv ediləcək və onun müəllifləri ağır cəzalandırılacaq"

Digər iqtidar nümayəndəsi, Vətəndaş Sazişi partiyasının katibi Artur Hovhanisyan isə bəyan edib ki, Ermənistanda yalnız bir – xalq tərəfindən qanuni seçilmiş hazırkı hökumət mövcuddur. "Ermənistanı [Azərbaycanla] yeni hərbi provokasiyaya çəkmək planları məhv ediləcək və onun müəllifləri ağır cəzalandırılacaq", - deyə o bildirib.

### Hətta bu arada, separatçı hökumətin Fransada yerləşməsinə dair təkliflər də səslənməkdədir...

Qeyd edək ki, bu istiqamətdə inkişaf edən ölkədaxili proseslərdə müxalifətdən olan bəzi təmsilçilər də separatçıların Ermənistanda qalmalarını təhlükə kimi qiymətləndirirlər. Hətta bu arada, separatçı hökumətin Fransada yerləşməsinə dair təkliflər də səslənməkdədir. Maraqlıdır ki, məhz Fransanın Azərbaycana qarşı təxribatçı əməllərindən və hər iki ölkənin diplomatlarını arzuolunmaz şəxs qismində elan etmələrindən sonra Fransaya köçmək "ideyası" ortaya atılıb. Hətta bu məsələni Parisin sifarişi kimi də qiymətləndirmək olar. Bunun üçün isə bəzi politoloqların "məsləhətləri" ortaya atılır. Bu baxımdan, müxalifətyönlü siyasi təhlilçi Hmayak Hovhannisyan deyib ki, separatçılar "Ermənistanı, erməni xalqını və Qarabağdan köçən ermənilәri dəstəkləməyə qətiyyətlə sadiq olan" Fransaya köçməlidir...




### Paşinyan da etiraf edib ki...

Xatırladaq ki, Ermənistan baş naziri Nikol Paşinyan Qarabağ ermənilərinin "öz müqəddaratını təyinetmə haqları üçün mübarizə" aparmaqdansa, öz ölkəsinin gələcəyinə üstünlük verəcəyini bəyan edib və bildirib ki, "dqr" adlı qurum dünyada heç vaxt tanınmayıb, hətta Ermənistanın özü belə, verdiyi hərbi və maliyyə dəstəklərinə baxmayaraq onu tanımayıb.

Ermənistan 2020-ci il 2-ci Qarabağ müharibəsindən sonra Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Belə ki, parlamentin spikeri Alen Simonyan bəyan edib ki, Ermənistan Azərbaycanın suverenliyini tanıyır.

### Qarabağ separatçılarının saxta "millət vəkilləri" İrəvanda "Ədalət və Qayıdış" adlı qondarma "qeyri-hökumət təşkilatı" yaratdığını bəyan ediblər

Lakin buna baxmayaraq, revanşçılar və separatçılar hələ də öz nağıllarına inanmaqda davam edirlər. Qeyd edək ki, ötən il dekabrın 27-də Qarabağ separatçılarının saxta "millət vəkilləri" İrəvanda "Ədalət və Qayıdış" adlı qondarma "qeyri-hökumət təşkilatı" yaratdığını bəyan ediblər. Onlar ermənilərin Qarabağa qayıdışı və regionun "öz müqəddəratını müəyyənetmə haqqı üçün mübarizə aparacaqlarını" bildiriblər.

Ancaq bütün bu kimi nağılbazlıqların və oyunbazlıqların fonunda rəsmi Bakı dəfələrlə (!) bəyan edib ki, Qarabağı tərk etmiş ermənilər ölkə vətəndaşlığını qəbul etmək şərti ilə geri qayıda bilərlər. Azərbaycan tərəfi həmçinin bəyan edir ki, Ermənistan da öz növbəsində 1980-ci illərin sonundan Ermənistandan qaçqın düşmüş azərbaycanlıların öz evlərinə qayıdışını təmin etməlidir.

Təəssüf ki, artıq Azərbaycanın ərazi bütövlüyü tam təmin olunduqdan sonra da Ermənistanda öz nağıllarına inananlar tapılır. Hər halda, Paşinyan iqtidarının bəlalərinə qarşı sərt tədbirlər görəcəyinə inanmaq istərdik...

**Afət Tahirqızı**

## Bir məsələyə məəttələm...



FELYETON

***Məlum məsələdir, indi hər kəsin əlində bir telefon var. Sağlıqlarına qismət olsun, xeyirli xəbərlər eşitsinlər. Allah ağıl-kamal nəsib etsin ki, bu telefonlardan hər kəs lazımi şəkildə istifadə etsin. Tanrı telefon sahiblərini sosial şəbəkələrin qurbanı etməsin, onları saatlarla Tiktokda ilişdirib saxlamasın. Allah Tiktokdakıları görməkdən hər kəsi qorusun.***

Mətləbdən uzaqlaşmayaq. Hər kəsin ki, əlində bir telefon var, bu, birinci danışmaqdan yana idi. Sonralar bununla şəkillər, hətta videolar da çəkilməyə başlandı. Hər kəs hara getdisə, çəkdi, paylaşdı ki, necə deyərlər, dost sevinsin, düşmənin də bağrı çatlasın. Şəhərimizdə tez-tez konsertlər təşkil olunur. Həm yerli müğənnilərin, həm də xaricdən od qiymətinə gətirilənlərin konserti. Camaat da yığışıb konsertə gedir. Əcəb də edir. Çünki asudə vaxtını səmərəli keçirmək istəyir. Burada şəkillər, videolar çəkdirir, müğənnilərin yanına qalxmaq, onları da fotolarda əbədiləşdirmək, video kadrlarına köçürmək üçün əldən-ayaqdan gedirlər. Hətta bunun üçün qan da düşür, baş da yarılır.

Hə, bunu yaxşı başa düşürük ki, camaat od qiymətinə bilet almır ki, təkcə gedib orada hər gün televiziya-radiodan dinlədiyi mahnıları bir də eşitsin. Həm də ona görə alır ki, qayıdıb paylaşsın, dostu da, düşməni də yandırıb yaxsın ki, bax, mən haradayam, sən haradasan...

Bunu başa düşməmək mümkün deyil. İnsanları da anlamaq lazımdır. Nə edək ki, psixologiyamız artıq bu cür formalaşmağa başlayıb. Biz də çoxsaylı psixologiyalara saygı ilə yanaşmalıyıq. Lakin deyəcəyim yenə də bu deyil. Deyəcəyim elə bir məsələdir ki, günlərdir, fikirləşirəm, hələ də tapa bilmirəm ki, bu, nə üçün belədir. Dedim bir sizə də məsləhət edim, bəlkə bilərsiniz.

Məəttəl qaldığım məsələ ayrıdır. Elə bu məsələni əslində hər il görürəm ey. Lakin nədənsə bu il ağlıma gəldi ki, görəsən camaat bunu nə üçün edir? Deməli, 31 dekabrda insanlar axışır şəhər mərkəzinə ki, günün tamamında atəşfəşanlıq olacaq. Gedək, baxaq, yeni ili təmtəraqla qarşılayaq. Ona məəttəl qalıram ki, atəşfəşanlıq zamanı təsadüf adam olar ki, ona canlı baxsın. Qalan hamı telefonların ekranından seyr edir bunu. Yeni video çəkir, elə çəkməklə də bu təntənəni izləyir.

Belə baxıram-baxıram, fikirləşirəm ki, yaxşı, bu camaat gecənin soyuğunda atəşfəşanlığı izləməyə gəliblərsə, nə üçün izləmir? Görəsən atəşfəşanlığı nə üçün çəkirlər? Məəttəl ona qalıram ki, aparıb ilboyu baxacaqlar, yoxsa bunu nə edəcəklər ki, hamı çəkir? İstəyirsən güləsən, ağlamaq tutur səni. Ağlamaq da istəmirsən ki, axı yeni ildir. Nə edəsən, çox məəttəl qalıram bu məsələyə...

**Mətanət Məmmədova**

**“Rusiya-Azərbaycan və Rusiya-Ermənistan münasibətləri üçün ötən il, necə deyərlər, ifşa ili oldu - kimin hansı dəyərdə olması, hər şeyin açıq görünməsi ili oldu”**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# Aleksey Naumov: “Uğursuz erməni revanşizminin dirçəlmək şansı yoxdur”

Tanınmış politoloq, Rusiya Beynəlxalq Əlaqələr Şurasının aparıcı eksperti Aleksey Naumov regionda yaranmış reallıq və Ermənistanın həyata keçirməyə çalışdığı uğursuz siyasət haqda “Caliber” analitik mərkəzinə müsahibəsində maraqlı məqamlara toxunub. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.

**- Qiymətləndirmənizə görə Ermənistan ötən il Rusiyaya qarşı hansı siyasəti yeritdi və nəyə nail oldu?**

- Rusiya ilə formal əlaqəni kəsmək heç vaxt Ermənistan rəhbərliyinin düşünülmüş siyasəti olmayıb. Daha doğrusu, qarşısına iki məqsəd qoyub: Rusiyadan narazılığını nümayiş etdirmək və Qərblə əməkdaşlıqdan müəyyən fayda əldə etmək. Ona görə də Ermənistanın Rusiya ilə münasibətlərə son qoymağa can atmadığı açıq-aydın görünürdü. Bu da başa düşüləndir, çünki İrəvan bunu edə bilmir və müvafiq olaraq, Moskvaya qarşı yerli demarşlarla məhdudlaşır, eyni vaxtda iki stulda oturmağa çalışır. Prinsipcə, Nikol Paşinyanın MDB dövlət başçılarının Yeni il qabağı qeyri-rəsmi görüşündə iştirak etməsi bütün bunları açıq şəkildə təsdiqlədi.

**- Bildiyiniz kimi, Rusiya ilə Ermənistan arasında hərbi-texniki əməkdaşlıq sahəsində yeni sazişlərlə bağlı müzakirələr davam edir. Bu, Rusiyanın Ermənistana silah tədarükünün bu il bərpa oluna biləcəyi anlamına gəlirmi?**

- Məncə, bu, mümkündür. Rusiya silahları Ermənistana kommersiya əsasında verilə bilər. Lakin istənilən halda bu, regionda qüvvələr balansını dəyişməyəcək. Erməni revanşizmi iflasa uğradı, onun dirilmək şansı yoxdur, İrəvanın buna nə gücü, nə də imkanları var.

Ümumiyyətlə, Moskva Ermənistana qapılarını bağlamır və həm İrəvanla, həm də Bakı ilə bu və ya digər formada münasibətləri saxlamaqda maraqlıdır. Amma dəfələrlə qeyd etdiyim kimi, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən əvvəl Ermənistanın Rusiyanın daha vacib və daha imtiyazlı müttəfiqi olduğu hesab olunurdusa, indi hər şey dəyişib. Məhz Azərbaycan Rusiyanın mühüm, daha proqnozlaşdırıla bilən və faydalı tərəfdaşıdır. Bunu ticarət-iqtisadi sahədə ikitərəfli qarşılıqlı fəaliyyət də göstərir ki, bunu Ermənistan haqqında demək olmaz.





**- Yəni, sizcə, Ermənistana Hindistan və Fransa silahlarının verilməsinin arxasında İrəvanın revanşist planları dayanmır?**

- Hindistan və Fransa silahlarının tədarükü Ermənistan üçün bir növ ağrıkəsicidir. Ölkə hakimiyyəti bununla hamıya göstərmək istəyir ki, baxın, bizim silahlarımız var, silah alırıq. Eyni zamanda, biz başa düşürük ki, heç bir silah- nə fransız, nə Hindistan, nə də başqa bir silah,- artıq dediyim kimi, regionda qüvvələr balansını dəyişə bilməz. Regionda lider Ermənistan deyil, Azərbaycandır. Üstəlik, həm hərbi planlaşdırmada, həm texnologiyada, həm diplomatik mövqeləşdirmədə, həm də bir çox başqa sahələrdə. Deməli, silah alınması Paşinyan üçün status simvoludur ki, bu da Ermənistanın beynəlxalq siyasətdə bir növ oyunçu olaraq qaldığını göstərmək üçündür.

**- Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanması ehtimalı nə dərəcədə yüksəkdir?**

- Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması istənilən halda qaçılmazdır. Nikol Paşinyan indi zamanla oynayır, çünki bu sənədin olmaması həm də ona hərbi-siyasi mənada bütün sahələrdə məğlubiyyətə uğramaq bahasına olsa belə, bəzi erməni mövqelərini müdafiə etdiyini nümayiş etdirməyə imkan verir. Düşünürəm ki, biz tezliklə sazişin imzalanacağını görəcəyik. Ermənistan tarixin axarına qarşı oynaya bilməyəcək.



**- 2024-cü ildə Cənubi Qafqazda hansı proseslər cərəyan edir?**

- Məncə, Cənubi Qafqaz üçün yeganə variant regionda vəziyyətin normallaşmasıdır. Çox uzun müddətdir ki, region ziddiyyətlər, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı ilə parçalanıb. Bu vəziyyət 1994-cü ildən 2020-ci ilədək qeyri-müəyyən qalmışdı. Amma indi Cənubi Qafqaz Rusiya ilə Qərb arasındakı ixtilaf və Azərbaycanın ərazilərini geri qaytarması fonunda sabitlik adası olacaq. Bölgə ilə birbaşa əlaqəli olan bütün oyunçuların sülh və sabitlikdə maraqlı olması da çox vacibdir. Azərbaycan, Gürcüstan, Türkiyə, İran və Rusiya bu əsas və nəqliyyat regionunda iqtisadi əməkdaşlığın və qarşılıqlı fəaliyyətin artırılmasında maraqlıdırlar.

Mənə bütövlükdə Cənubi Qafqazın gələcəyi sabit görünür. Bilmək çox xoşdur ki, bizim uğurlu inkişafını izləyə biləcəyimiz bir bölgə var.

**- 2023-cü il Rusiya-Azərbaycan və Rusiya-Ermənistan münasibətləri baxımından necə oldu?**

- Rusiya-Azərbaycan və Rusiya-Ermənistan münasibətləri üçün ötən il, necə deyərlər, ifşa ili oldu - kimin hansı dəyərdə olması, hər şeyin açıq görünməsi ili oldu. Ötən il göstərdi ki, ermənilərin çoxəsrlik dostluq vədləri Rusiyanı öz ədalətsiz münaqişəsində Ermənistanın əvəzinə döyüşməyə məcbur etmək cəhdini görə olub. O da məlum oldu ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər sadəcə olaraq hansısa ümumi tarixi yaddaşa əsaslanan münasibətlər deyil, iqtisadi və siyasi məna ilə dolu əməkdaşlıqdır. Biz ekspert əməkdaşlığının necə möhkəmləndiyini gördük, Rusiya-Azərbaycan ekspert şurasının iclasları keçirilib və mən əminəm ki, Şimal-Cənub dəhlizi beynəlxalq ticarətdə mühüm həlqə olacaq və Rusiya ilə Azərbaycanı daha da sıx birləşdirəcək.

Bütövlükdə, Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsi və Cənubi Qafqazın sakitləşməsi nəzərə alınmaqla uğurlu, eyni zamanda müasir Paşinyan Ermənistanının əsl simasını nümayiş etdirdiyi il oldu. Azərbaycanlı dostlarımızı suverenliyin və ərazi bütövlüyünün tam bərpası münasibətilə təbrik etmək istəyirəm, ümid edirəm ki, xalqlarımızın və dövlətlərimizin dostluq münasibətləri gələcəkdə də məqsədyönlü şəkildə möhkəmlənəcəkdir.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
8 yanvar
2024-cü il

# COVİD-19-a yoluxanların sayı artır?



*“Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus bir çox ölkələrdə xəstələnmə hallarının artması səbəbindən qoruyucu maskalardan, COVİD-19-a və qripə qarşı peyvənddən imtina etməməyi tövsiyə edir ki, Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə əməl etmək lazımdır". Bu sözləri professor Adil Qeybulla deyib.*

Həkimin sözlərinə görə, qlobal pandemiya bitib, yenidən alovlanması mümkün deyil, çünki infeksiya zənciri qırılıb: ”Sadəcə epidemik ocaqlar ayrı-ayrı yerlərdə davam edir. ”Omikron” mutasiya ştamları özünü daha çox yoluxuculuq indeksinin yüksəlməsi ilə göstərir. Amma bu virusun öldürücülük, ağırlaşma törətmə qabiliyyəti aşağıdır. Virus zəifləməkdə davam edir. Bunlara baxmayaraq xəstəlik sayını azaltmaq üçün artıq sınaqdan çıxmış

**HƏKİM AYDINLIQ GƏTİRDİ**

karantin qaydalarına əməl etmək lazımdır”.

O, əlavə edərək deyib: ”Əllərin gigiyenası, maska taxmaq, izolyasiya, insanların kütləvi toplandığı yerlərdə daha diqqətli olmaq, xəstələnərkən təcrid olmaq, həm özünü, həm də başqalarını qorumaq fərdi karantin qaydalarını qorumaq üçün mühüm şərtlərdir. Biz bu yolla infeksiya zəncirinin davam etməməsi, onun vaxtında lokallaşdırılması, başqalarının yoluxmaması üçün lazımlı işləri görmüş oları”.

**Söylü Ağazadə**

# Avtomobillərin qiymətinin kəskin bahalaşmasına SƏBƏB NƏDİR?



*“Azərbaycana idxal edilən maşınların gömrük xərcləri kifayət qədər yüksəkdir. Eyni zamanda, yanvar ayının 1-dən Azərbaycana idxal edilməsinə qadağa qoyulan maşın yaşları da azaldılıb. 2014-cü ilə qədər istehsal tarixi olan maşınların ölkəyə idxalına məhdudiyyət qoyulub".*

Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı ekspert Akif Nəsirli deyib. Onun sözlərinə görə, bu maşınların idxal yaşı cavanlaşdıqca bazarda qiymətlərin bahalaşması gözlənildir: ”Çünki yaşı az olan maşınlar daha baha olur. Digər tərəfdən kasıb əhalinin almaq istədiyi istehsal tarixi daha çox olan maşınların qıtlığı yaşanır. Ona görə də yaşı az və ucuz maşınlara tələbat artır. Bu tələbat təklifi üstələdiyinə görə maşınların qiyməti artır. Təzə maşınların qiymətləri demək olar ki, olduğu kimi qalır”.

”Bahalaşanlar istehsal tarixi daha çox olan ikinci və üçüncü əl maşınlardır. Bunun da bir səbəbi gömrük xərcləri, digər səbəbi isə Azərbaycana idxalına icazə verilən maşınların ildən-ilə yaşının gəncləşməsidir”,- deyə o əlavə edib.

**L. Sərraf**

## Arda Güler ”Real"da debüt etdi



Ötən yay ”Fənərbaxça”dan ”Real”a keçən Arda Güler Madrid təmsilçisində debüt edib. 18 yaşlı yarımmüdafiəçi İspaniya kubokunun 1/16 finalında ”Arandina” ilə oyunda iştirak edib. O meydana start heyətdə daxil olub və 59-cu dəqiqədə Federiko Valverde ilə əvəzlənib. Arda ötən ilin yayından bəri aldığı ardıcıl zədələr səbəbindən komandada debüt edə bilməmişdi.

**“SƏS” qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Bayramdan sonra kortəbii surətdə pəhriz saxlamaq olmaz”

“Sağlam qidalanma dedikdə orqanizmə lazım olan karbohidrat, yağ, zülal, mineral və vitaminlər qəbulu nəzərdə tutulur. Buna ət və ət məhsulları, süd məmulatları, meyvə-tərəvəz daxildir. Onların tərkibində kifayət qədər mineral və vitaminlər var. Yəni, sadaladıqlarım bütövlükdə sağlam qida rasionunu təşkil edir. Sağlam qidalanmaq istəyən şəxslər qida rasionunda bu məhsullardan istifadə etməlidir”. Bu sözləri SİA-ya açıqlamasında diyetoloq Ofelya Tahirova deyib.



**MÜNASİBƏT**

Onun sözlərinə görə, bayramdan sonra kortəbii surətdə pəhriz saxlamaq olmaz: ”Belə pəhrizlər orqanizmə müxtəlif problemlər yaradır. Xüsusilə, xroniki xəstəlikləri olan şəxslər necə gəldi pəhriz saxlaya bilməz. Şəkər, təzyiq, böyrək, öd xəstəliyindən əziyyət çəkən insanlar üçün qeyri-sağlam qidalanma təhlükəli fəsadlar törədə bilər. Ona görə də, pəhriz üçün qidalar fərdi şəkildə seçilməlidir”.

Diyetoloq sözlərinə davam edərək bildirib ki, hər birimizin evində bayram süfrəsində milli yeməklərimiz olur və həmin təamlardan dadmaq ciddi problem yaratmır: ”Çünki bu, uzun müddətli proses deyil. İki gün sonra yenidən sağlam qidaya qayıda bilərik. Xüsusi qaydalara əməl etməyə ehtiyac yoxdur. Sadəcə olaraq, un məmulatlarından az istifadə etmək məqsədəuyğundur. Həmçinin, gündəlik yeyilən qidanın həcmi bir qədər azaldıla bilər. Aktiv həyat tərzi də bu məsələdə vacib rol oynayır. Lakin yaşlı insanlar və qeyd etdiyim xəstəliklərdən əziyyət çəkən şəxslər bayram günlərində də öz qida rejiminə diqqət etməlidir. Həmin insanlar bayram şirniyyatlarını günün birinci yarısında qəbul etsələr, daha yaxşı olar. Axşam saatlarında ağır yeməklər, şirniyyatların qəbulu məsləhət deyil. Qazlı və şirəli içkilərlə birlikdə qida qəbulu da yanlışdır. Belə qidalanma növbəti günlərdə köp və qəbzliyə, mədə ağrılarına səbəb ola bilər”.

**Ləman**

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000